RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 215 (8238) BAZAR, 29 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qafqazın ən qüdrətli ordusu

## 2019-cu ildə Azərbaycanın hərbi təlimlərin sayını artırması Ermənistanda qorxu və həyəcanla qarşılanır

Dövlətin təməl prinsiplərindən biri qüdrətli ordudur. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycanda güclü ordunun yaradılmasına nail olunub. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu sahədə aparılan işlərin effektini dəfələrlə artırıb, ölkəmizin müdafiə qüdrətini daha da gücləndirib.

### Məqsəd ərazi bütövlüyümüzün bərpasıdır

Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşımızda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsidir. Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində ötən illərdə ordumuzun döyüş qabiliyyətinin artırılması üçün bu sahədə qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırılıb. Bu mənada inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırmasıdır.

Ermənistanın istənilən mənfur niyyətinin qarşısını almaq üçün respublikamız kifayət qədər və daha üstün hərbi imkanlara malikdir. Ordumuzun gücü istənilən təhdidin qarşısının alınmasına ən yüksək səviyyədə imkan verir. Son dövrlərin təcrübəsində bununla bağlı kifayət qədər fakt var. Xüsusən 2016-cı ilin Aprel döyüşlərindən sonra Ermənistan rəhbərliyinin hədə-qorxu dilində danışmağı artıq erməni cəmiyyətində də gülüşlə qarşılanır.

İyunun 26-da Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: *“Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək”.*

Azərbaycanda ordu quruculuğu və silahlı qüvvələrin döyüş imkanlarının artırılması istiqamətində görülən işlər yalnız yeni hərbi texnikaların alınması ilə yekunlaşmır. Aydın məsələdir ki, qoşun növlərinin döyüş praktika və təcrübəsinin də artırılması olduqca vacibdir. Bu gün dünyanın müxtəlif nöqtələrində müharibələr baş verməkdədir. Bu müharibələr həm də ayrı-ayrı dövlətlər üçün bir növ təcrübə meydanıdır.

**Ardı 4-cü səh.**

## Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mərkəzi bankçılığın yaranmasının 100 illiyi münasibətilə və bank işinin inkişaf etdirilməsindəki xidmətlərinə görə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Rüstəmov Elman Sirac oğlu

**2-ci dərəcəli “Əmək” ordeni ilə**

Babayev Aftandil Qasım oğlu
Xubanov Vadim Ələddin oğlu
Quliyev Alim Səlim oğlu

**3-cü dərəcəli “Əmək” ordeni ilə**

Qurbanlı Vahid Nuhnəbi oğlu
Məlikova Rəna Ənvər Paşa qızı

**“Tərəqqi” medalı ilə**

Adıgözəlov Şaiq Əli oğlu
Babayeva Sevil Əlisafa qızı
Çebuxanova İrina Gennadiyevna
Ələkbərov Fətullah Əkbər oğlu
Əliyev Elşən Kərim oğlu
Əliyeva Heyran Sədaqət qızı
Əhmədov Əli İsmayıl oğlu
Heydərov Şakir Vəli oğlu
Hüseynova Leyla Vəli qızı
İsmayılov Fəxri Yaşar oğlu
Qasımov Adışirin Firudin oğlu
Qasımov Asif İbrahim oğlu
Quluzadə Mahir Məhərrəm oğlu
Məmmədov Şakir Kərim oğlu
Nəbiyeva Leyla Süleyman qızı
Orucov Rəşad Temraz oğlu
Osmanov Fərid Tofiq oğlu
Zəkiyeva Faizə Ramiz qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 sentyabr 2019-cu il*

## Azərbaycan yenə də ən islahatçı ölkələr sırasında yer aldı

Azərbaycan Dünya Bankının nüfuzlu “Doing Business 2020” hesabatında ən islahatçı 20 ölkə sırasına daxil edilib. Bu, Azərbaycan dövlətinin apardığı məqsədyönlü və çoxşaxəli sosial-iqtisadi islahatlara verilən daha bir yüksək qiymətdir.




Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı, prinsipial və milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan dinamik inkişaf edən güclü ölkəyə çevrilib. Bu gün Azərbaycan artıq yüksək beynəlxalq nüfuza malik bir dövlət kimi tanınır və qəbul edilir.

Yürüdülən uğurlu siyasətin ürəkaçan nəticələri çoxdur. Bunlardan yalnız bir neçəsini göstərmək kifayətdir. Sosial-iqtisadi infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda güclü potensial yaradılması, əhalinin sosial təminatı sahəsində atılan inqilabi addımlar və s. dövlətimizin qarşıya qoyduğu prioritetlərdəndir.

İndi Azərbaycan iqtisadi inkişaf, həyata keçirilən böyük sosial-iqtisadi islahatlar, mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməkdə qazandığı zəngin təcrübə sayəsində haqlı olaraq bütün dünyada yüksək nüfuz qazanıb.

İslahatlar nəticəsində əldə olunan nailiyyətlər statistik rəqəmlərdə belə əks olunur: son 15 ildə Azərbaycanda ümumi daxili məhsul istehsalı 3,2 dəfə artıb. ÜDM-in qeyri-neft sahəsində 2,8 dəfə, sənaye məhsulu istehsalında 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesində 2,2 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalında 2 dəfəyə qədər çoxaldığı müşahidə edilib. Dövlət büdcəsinin gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard dolları ötüb.

Aparılan islahatlar, ilk növbədə, ölkə əhalisinin maddi durumunda özünü göstərir. Əməkhaqların, pensiyaların, müavinətlərin, təqaüdlərin ardıcıl olaraq artırılması da məhz bu islahatların nəticələrindən qaynaqlanır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, onu göstərir ki, biz bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq”.

Qeyri-neft sektorunun inkişafı, sahibkarlıq fəaliyyətinə getdikcə daha geniş meydan verilməsi islahatların bir qoludur və bu da ölkənin ümumi yüksəlişinə təkan verən amillərdəndir. Bu il iyulun 31-də Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə qeyd edilib ki, birinci yarımillikdə sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılıb. İlin ikinci yarısında 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Bu istiqamətdə bir sıra layihələr müəyyənləşdirilib və hazırlanıb.

**Ardı 6-cı səh.**

## Qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib

### Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın Bakıda keçirilən 45-ci illik konfransında Azərbaycan nümunəsi təqdir edildi

Azərbaycan 2019-cu ilin tarixinə yazılacaq daha bir beynəlxalq tədbirə evsahibliyi etdi. Bir həftə ayrı-ayrı sessiyalarda davam etdirilən Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusunda 45-ci illik konfransının sentyabrın 23-də Bakıda rəsmi açılışı keçirildi.

55 ölkədən 300-dən çox nümayəndənin iştirak etdiyi IAEA-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Onun Azərbaycanda təşkilatçısı Dövlət İmtahan Mərkəzidir. IAEA 1975-ci ildən başlayaraq hər il bu cür konfranslar keçirir. Azərbaycan 2007-ci ildə MDB ölkələri arasında IAEA tərəfindən belə bir tədbir keçirən ilk ölkə olub.

IAEA-nın prezidenti Rendi Bennett xüsusi vurğuladı ki, Dövlət İmtahan Mərkəzi maraqlı və informativ elmi proqram, habelə Xəzərin sahilində yerləşən gözəl Bakı şəhərində bir sıra sosial tədbirlər işləyib hazırlayıb: “IAEA-2019 təhsilin qiymətləndirilməsini necə inkişaf etdirə biləcəyimiz ətrafında stimullaşdırıcı mübadilə ilə dolu xüsusi bir konfrans vəd edir”.

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakçılara ünvanladığı təbrik məktubunu oxudu.

Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Timsin “İlkin qiymətləndirmənin üstünlüyü: ibtidai təhsildə potensialın və inkişafın ölçülməsi” mövzusunda əsas məruzəsi dinlənildi. O, Azərbaycanda təhsil sahəsində aparılan islahatların dünya standartlarına uyğun və nümunəvi olduğunu diqqətə çatdırdı.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qeyd etdi ki, ötən müddət ərzində həm Azərbaycan, həm də dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qalıb. Bütün bunlar da, öz növbəsində, öyrətməyə, öyrənməyə və ümumilikdə təhsilə təsirsiz ötüşməyib. Bu cür böyük dəyişikliklər, heç şübhəsiz, təhsildə qiymətləndirmədə də özünü göstərib. Artıq onilliklərdir ki, qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib.

**Ardı 4-cü səh.**

## İnfrastruktur layihələri uğurla icra edilir

Dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi paytaxt Bakı ilə yanaşı, bölgələrdə də uğurla icra edilir. Qərb bölgəsində yerləşən Ağstafa rayonunda da belədir.

Rayonda sosial infrastruktur layihələr çərçivəsində əhalinin asudə vaxtlarının səmərəli təşkili və istirahət etmələri üçün müasir tələblərə cavab verən yeni parklar salınmış, mövcud istirahət və mədəniyyət mərkəzləri əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu işlər indi də davam etdirilir. Elə bu yaxınlada 0,5 hektar ərazisi olan Sosialist Əməyi Qəhrəmanı Mehdi Mustafayevin adını daşıyan mədəniyyət və istirahət parkında abadlıq və quruculuq işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Bundan başqa, Heydər Əliyev Mərkəzinin, Heydər Əliyev parkının və Ağstafa Rayon İcra Hakimiyyətinin qarşısında abadlıq işləri görülmüş, Bakı-Qazax magistral yolunun Ağstafa şəhərinin ərazisindən keçən hissəsində piyadaların təhlükəsiz keçidi üçün səki salınmış, hörgü işləri aparılmış, asfalt örtüyü salınmışdır. Heydər Əliyev Mərkəzində dekorativ hasarın sökülmüş hissələri bərpa olunmuş, Heydər Əliyev parkındakı fəvvarələr yenidən qurulmuş, oturacaqlar təzələnmiş, işıqlandırma avadanlıqları quraşdırılmış və ərazidə çox sayda ağac əkilmişdir.

Məlumdur ki, ölkə rəhbərinin bölgələrə mütəmadi səfərləri Dövlət proqramlarının icrasını sürətləndirməklə yanaşı, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Əhalinin sağlamlığının qorunması və onların tibbi xidmətlərlə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər də yerlərdə razılıqla qarşılanır.

**Ardı 4-cü səh.**



## Üzümçülük yenidən gəlir və şöhrət gətirir

Keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən ölkəmizdə üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq dövlət tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

2002-ci ildə “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci, ikinci və üçüncü dövlət proqramlarında da üzümçülüyün inkişafı üzrə tədbirlər nəzərdə tutulmuşdu.

Dövlət başçısının 25 avqust 2008-ci ildə təsdiq olunan “2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” ölkəmizdə ən gəlirli sahələrdən olan üzümçülüyün yenidən inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. Buna müvafiq olaraq Prezidentin 15 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilən “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nda sahənin müasir vəziyyəti təhlil olunmuş, 2020-ci ilə qədər respublikada 50 min hektar yeni üzüm bağlarının salınması planlaşdırılmışdır. Sənəddə, eləcə də əhalinin təzə üzümlə təchizatının daha da dolğun ödənilməsi, müxtəlif qida məhsullarının və spirtsiz şirələrin istehsal edilməsinin məqsəd və vəzifələri, maliyyə mənbələri göstərilmişdir. “2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nda isə bu sahənin sənaye miqyasında inkişafının təmin edilməsi, dünya standartlarına uyğun şərab məhsullarının istehsalının strateji istiqamətləri müəyyənləşdirilmişdir.

**Ardı 8-ci səh.**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya həsr olunmuş miniatür kitabın təqdimatı keçirilib

Sentyabrın 27-də İçərişəhərdəki Miniatür Kitab Muzeyində "Mexriban Aliyeva. Missiya dobra vıpolnima" ("Mehriban Əliyeva. Xeyirxahlıq yerinə yetirilən missiyadır") miniatür kitabının təqdimatı keçirilib. Kitabın müəllifi Milli Məclisin deputatı, Azərbaycanın Xalq yazıçısı Elmira Axundovadır.

AZƏRTAC xəbər verir ki, mərasimdə Miniatür Kitab Muzeyinin təsisçisi və yaradıcısı, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova, Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, Milli Məclisin deputatları Səməd Seyidov, Asim Mollazadə, Rauf Əliyev, Jalə Əliyeva, tanınmış yazıçı, PEN-klubun prezidenti, Azərbaycan Yazıçılar Birliyinin katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Yazıçılar Birliyi və Kinematoqrafçılar İttifaqının üzvü, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Natiq Rəsulzadə, yaradıcı ziyalıların nümayəndələri, alimlər, jurnalistlər, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.




Miniatür Kitab Muzeyinin təsisçisi və yaradıcısı Zərifə Salahova mərasimi açaraq deyib ki, 1988-ci ildən bugünədək onun tərəfindən 238 miniatür kitab buraxılıb, lakin bu nəşr görkəmli şəxsiyyət - Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya həsr olunmuş ilk müəllif kitabıdır.

Sonra Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundova kitab haqqında müfəssəl məlumat verib. Diqqətə çatdırıb ki, nəşrdə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti barədə Azərbaycan və xarici KİV-də nəşr etdirdiyi məqalələri toplanıb.

Elmira Axundova deyib ki, bu kitabdakı bütün məqalələrin ana xəttini sadə vətəndaşların etimadını qazanmış, kömək üçün ona müraciət edən hər kəsin probleminə qayğı ilə yanaşan, həssaslığı və insanpərvərliyi ilə seçilən Mehriban Əliyevaya ümumxalq sevgisi təşkil edir. Məqalələrdə Mehriban xanımın UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Azərbaycanın, xalqımızın mədəniyyətinin və incəsənətinin dünyada tanıdılmasında böyük xidmətlərindən, onun rəhbərliyi ilə ölkədə qlobal miqyaslı idman və mədəniyyət tədbirlərinin uğurla keçirilməsindən, dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələrdən bəhs olunur.

Qeyd olunub ki, "Mexriban Aliyeva. Missiya dobra vıpolnima" miniatür kitabı 2019-cu ildə "İndiqo" nəşriyyatı tərəfindən 100 nüsxədə çap edilib. 60x70 mm ölçüdə, 412 səhifədən ibarət miniatür kitab 105 rəngli fotoşəkillə illüstrasiya olunub. Fotoşəkillər müəllifə AZƏRTAC tərəfindən təqdim edilib.

Mərasimdə çıxış edənlər Birinci vitse-prezident Mehriban Əliyevanın olduqca geniş və çoxşaxəli fəaliyyətindən söz açıblar. Onlar Mehriban Əliyevanın ölkəmizin həyatının bütün sahələrində müstəsna xidmətlərini, onun hər bir azərbaycanlıya həssas diqqətini və sonsuz qayğısını, Birinci vitse-prezident, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfirinin təşəbbüsü ilə həyata keçirilən və Azərbaycan muğam və xalçaçılıq sənətlərinin qorunması, inkişafı və tanıdılmasına həsr olunmuş möhtəşəm layihələri, onun Azərbaycan qadınlarının lideri və onlara örnək olduğunu, öz ölkəsini dünyanın bütün guşələrində layiqincə təmsil etdiyini vurğulayıblar. Çıxışlarda Mehriban xanımın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun uşaq bağçalarının, internatların, ümumtəhsil məktəblərinin, mədəniyyət və sosial obyektlərin tikintisi istiqamətində fəaliyyətindən, şəhid ailələri və məcburi köçkünlərə göstərdiyi yardımlardan bəhs edilib. Vurğulanıb ki, Mehriban xanım Əliyeva bütün fəaliyyət sahələrinə öz töhfəsini verib.

Müəllif nəfis tərtibatlı kitaba epiqraf kimi Mehriban Əliyevanın bu sözlərini sitat gətirib: "Hər bir insan öz taleyinin yaradıcısı ola bilər və olmalıdır. Seçim həmişə var. Mən nə sırf təsadüfə inanıram, nə də dünyanın əvvəlcədən dəqiq müəyyən olunması fikrinə. Mən Allaha və insanın imkanlarına inanıram".

Kitab Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il fevralın 21-də Təhlükəsizlik Şurasının iclasındakı nitqi ilə açılır. Dövlət başçısı bu çıxışında Mehriban xanım Əliyevanın həyatın bir çox sahələrindəki çoxşaxəli və uğurlu fəaliyyətini qeyd edir. Məhz bu fəaliyyətin nəticəsində onun Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması barədə qərar qəbul edilib.

Müəllif yazır: "Həm öz xanımının çiyninə dövlət məsuliyyətinin ağır yükünü qoymuş Prezidentin, həm də birinci xanımın özünün cəsarətinə heyran qalmamaq mümkün deyil. Axı o, vəzifəsinə ölkə üçün çox da yaxşı olmayan vaxtda başlayır - gözlənilmədən gələn postneft dövrü Prezident komandasından yeni, qeyri-standart qərarlar, təşəbbüslər və bütün dövlət mexanizminin dərin islahatını tələb edir". Xalq yazıçısı qeyd edir ki, Mehriban Əliyevanın özü üçün prioritetlər son dərəcə aydındır, axı o, əvvəllər də onları rəhbər tutub: "Onun fikrincə, bu prioritetlər, ilk növbədə, humanizm prinsipləri, insanlarla təmasda olmaq bacarığı, onları dinləmək və fikirlərini öyrənmək məharəti, insanpərvərlik, şəfqət və qarşılıqlı hörmətdir".

# "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı

Sentyabrın 28-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin (IRCICA) birgə təşkilatçılığı ilə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalının təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində hökumət və dövlət nümayəndələri, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus təmsilçiləri, habelə tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov çıxış edərək ölkəmizdə bu il 650 illiyi qeyd edilən görkəmli mütəfəkkir İmadəddin Nəsimi yaradıcılığına həsr edilmiş silsilə tədbirlər haqqında məlumat verib.

Bildirib ki, bu qəbildən olan ikinci "Nəsimi - şeir, incəsənət və mənəviyyat" Festivalı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsini qeyd edən Ə.Ələkbərov bu münasibətlə ölkəmizdə və onun hüdudlarından kənarda da çoxsaylı tədbirlərin keçirildiyini söyləyib.

Vurğulayıb ki, festival çərçivəsində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzi (IRCICA) beynəlxalq təşkilatı ilə birlikdə Azərbaycanda ilk dəfə "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı və "İslam dünyasında incəsənətin inkişaf perspektivləri" mövzusunda I Bakı Beynəlxalq Konqresi keçirir. Konqresdə dünyanın 30 müsəlman ölkəsindən gəlmiş 50-dən çox sənətkar, alim və ekspertlər iştirak edəcək.

Qoruq İdarəsinin rəhbəri vurğulayıb ki, Qız qalası, Qala divarları, Şirvanşahlar sarayı zövqün, yaradıcılığın, sənətin ən gözəl nümunələridir. Bu abidələrimiz tək xalqımızın deyil, bütün dünyanın irsi hesab edilir: "2020-ci ildə abidələrimizin UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilməsinin 20 ili tamam olur. İçərişəhərdə tikilmiş abidələrin bir çoxu "Nəsimi epoxası"nın abidələri sayılır. İçərişəhər bizim elə bir



canlı tariximizdir ki, burada daşoyma, xalçaçılıq, papaqçılıq, zərgərlik, toxuculuq, dulusçuluq, xəttatlıq kimi el sənətləri daim yaşayır və təbliğ olunur. Hazırda qədim şəhərdə əsrlərlə formalaşmış yüksək zövqün nişanəsi olan memarlıq abidələri, incəsənət və mədəniyyət nümunələri dövlət qayğısı altında qorunmaqdadır".

Konqres və festival iştirakçılarına səmərəli fəaliyyət arzu edən Ə.Ələkbərov ölkəmizin tarixinin, mədəniyyətinin beşiyi olan İçərişəhərin festivalda iştirak edəcək hər bir qonağın yaddaşında xüsusi yer tutacağını qeyd edib.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə vurğulayıb ki, belə bir mötəbər tədbirin ölkəmizdə keçirilməsi olduqca əlamətdardır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri bildirib ki, İmadəddin Nəsiminin adı ilə bağlı olan bütün tədbirlər burada iştirak edən hər kəsi mənəvi cəhətdən birləşdirir.

"Biz İçərişəhərin dünənini də, bugününü də görmüşük. Burada belə bir inkişafı, abadlıq-quruculuq işlərini gördükdə insan iftixar hissi keçirir. Mən öz xalqımın tarixi və mədəniyyəti ilə qürur duyuram. Ölkəmiz müstəqillik əldə etdikdən sonra islama və islam tarixinə böyük diqqət yetirilib, qayğı göstərilib. Bu gün bu işlərin davam etməsi də göz qabağındadır. Bununla yanaşı, Heydər Əliyev Fondu və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva da çox böyük işlər görür. Mən fürsətdən istifadə edib Prezident İlham Əliyevə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya bu işlərdə göstərdikləri böyük dəstəyə görə təşəkkür edirəm" deyə Allahşükür Paşazadə söyləyib.

Nəsiminin yaradıcılığının və onun adının dünyada daha da geniş şəkildə təbliğ olunmasında dövlət başçısının xidmətlərini vurğulayan Allahşükür Paşazadə ona rəhbəri olduğu qurumun kollektivi adından minnətdarlığını bildirib.

Mədəniyyət naziri Əbülfəs Qarayev bildirib ki, ölkəmizdə ikinci dəfə "Nəsimi - şeir, incəsənət və mənəviyyat" Festivalının keçirilməsi böyük mədəniyyət hadisəsidir. Ölkəmizdə mütəmadi olaraq beynəlxalq tədbirlərin təşkil olunmasına diqqət çəkən nazir vurğulayıb ki, bu tədbirlər yüksək səviyyədə təşkilatçılığı ilə yadda qalır.

"50 il bundan öncə Ulu Öndər Heydər Əliyev ilk dəfə olaraq Nəsiminin yubileyinin UNESKO səviyyəsində keçirilməsinə qərar verib. Nə gözəldir ki, Ulu Öndərin nəvəsi 50 ildən sonra təkrar Nəsiminin adını ucaldaraq onun adını daşıyan festivala təşkilatçılıq edir. Bizim xalq öz mədəniyyəti, ədəbiyyatı və tarixinə hər zaman həssaslıqla yanaşır. Hər zaman da belə olacaq, çünki biz heç vaxt özümüzü bunlarsız təsəvvür edə bilmərik" Əbülfəs Qarayev belə deyib.

"El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı və "İslam dünyasında incəsənət və sənətkarlığın inkişaf perspektivləri" I Bakı Beynəlxalq Konqresinin əhəmiyyətindən danışan nazir bildirib ki, bu festival müasir dövrdə inkişaf edən islam mədəniyyətinin gələcək inteqrasiyası üçün təsirli bir təkan olacaq.

İslam Tarixi, Mədəniyyəti və İncəsənəti Araşdırma Mərkəzinin baş direktoru Xalid Ərən festivalın əhəmiyyəti barədə danışıb, bu çərçivədə reallaşan "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı və "İslam dünyasında incəsənət və sənətkarlığın inkişaf perspektivləri" I Bakı Beynəlxalq Konqresinin önəmini vurğulayıb.

Qeyd edək ki, İçərişəhərdə təşkil olunan "El sənəti" I Bakı Beynəlxalq Ənənəvi Sənətkarlıq Festivalı oktyabrın 4-dək davam edəcək.

# Elmar Məmmədyarov ECO-nun Xarici İşlər nazirlərinin iclasında iştirak edib

BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Xarici İşlər naziri Elmar Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xarici İşlər nazirlərinin iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Elmar Məmmədyarov çıxışında regional və regionlararası təşəbbüslərdə iştirak edən Azərbaycanın hər zaman bölgədə və onun hüdudlarından kənarda müxtəlif iqtisadi əməkdaşlıq səylərini dəstəklədiyini və bu xüsusda ECO çərçivəsində əməkdaşlıq fəaliyyətinə və bu bölgədə ticarət və əməkdaşlığın inkişafına əhəmiyyət verdiyini bildirib. Təşkilatın konkret və nəticəyə yönəlik layihələrə üstünlük verməli olduğunu söyləyən nazir bu xüsusda prioritet sahələr qismində ticarət, nəqliyyat, kənd təsərrüfatı, informasiya və kommunikasiya texnologiyaları və turizmi qeyd edib.




Azərbaycanın tranzit və ticarət potensialı, ölkəmizin nəqliyyat infrastrukturlarını müasirləşdirmək və şaxələndirmək səyləri, həyata keçirilən bağlılıq layihələri barədə iclas iştirakçılarına məlumat verən nazir sözügedən layihələrin ECO ərazisinin tranzit imkanlarının artmasına xidmət etdiyini bildirib. Kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd olunub və bu ilin oktyabr ayında ECO Kənd Təsərrüfatı nazirlərinin Bakıda 6-cı toplantısının keçiriləcəyi səsləndirilib. İnformasiya və kommunikasiya texnologiyaları sahəsi ECO dövlətləri tərəfindən əməkdaşlığın inkişaf etdirilə biləcəyi potensial sahə kimi vurğulanıb.

Nazir 2017-ci ildə qəbul olunan "ECO Vision 2025" sənədinə istinad edərək, Azərbaycanın ECO-nun daha da inkişaf etdirilməsi imkanlarını təmin edəcək və institutların effektivliyini genişləndirəcək islahat prosesini dəstəklədiyini qeyd edib.

Çıxışının sonunda nazir Elmar Məmmədyarov ECO iştirakçı ölkələri arasında mövcud olan tarixi bağların Azərbaycan tərəfindən yüksək dəyərləndirildiyini və bu əlaqələrin həmrəylik prinsipləri əsasında inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib. Nazir siyasi və hərbi təhdidlər, o cümlədən bu ərazilərdəki hərbi işğal və qanunsuz fəaliyyətlər aradan qaldırılmadan regional iqtisadi əməkdaşlığın inkişafının mümkünsüz olduğunu vurğulayıb. Bu xüsusda 2017-ci il İslamabad Sammitinin Bəyanatının müddəalarının üzv ölkələrin milli və regional fəaliyyətlərində nəzərə alınmasının önəm kəsb etdiyi qeyd olunub.

# *Elmar MƏMMƏDYAROV:* "Azərbaycan Qrup 77 təşkilatına töhfə verməyə hazırdır"

BMT Baş Assambleyasının Nyu York şəhərində keçirilən iclası çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Qrup 77 (G77) təşkilatının 43-cü illik iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan G77 qrupuna təşkilatın 135-ci üzvü qismində qoşulub.

Əsas məqsədi beynəlxalq inkişaf və iqtisadi əməkdaşlıq məsələləri ilə bağlı birgə mövqedən çıxış etmək olan və sıralarında bugünədək 134 üzv ölkəni birləşdirən G77 iqtisadi və sosial məsələlər üzrə BMT-dən sonra dünyanın ən çox dövlətini bir araya gətirən birlikdir. BMT çərçivəsində fəaliyyət göstərən bu təşkilat inkişaf etməkdə olan ölkələrin mövqeyini, o cümlədən BMT-nin dayanıqlı inkişaf məqsədlərinin icrası istiqamətində inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etmək və bu istiqamətdə BMT-nin bütün qərargahlarında birgə mövqedən çıxış etmək məqsədi güdür.

G77-nin iclasında çıxışı zamanı nazir Elmar Məmmədyarov Azərbaycanın bu təşkilata fəal töhfə verməyə hazır olduğunu və Qoşulmama Hərəkatına sədrliyi dövründə bu iki təşkilat arasındakı münasibətlərin və əlaqələndirmənin inkişafı istiqamətində səylər göstərəcəyini bəyan edib.

# Azərbaycanın Xarici İşlər naziri bir sıra görüşlər keçirib

BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Xarici İşlər naziri Elmar Məmmədyarov Yunanıstanın Xarici İşlər naziri Nikos Dendias ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə öncə Elmar Məmmədyarov yeni hökumətin seçilməsi münasibətilə yunan həmkarını təbrik edib.

O, nazir N.Dendiasa Azərbaycan Respublikasının Yunanıstana yeni səfirinin təyin olunduğu barədə məlumat verib.

Görüşdə nazirlər Azərbaycan ilə Yunanıstan arasında mövcud olan əməkdaşlıq münasibətləri üzrə fikir mübadiləsi aparıblar. Tərəflər arasında xüsusilə qeyri-neft sektoru və turizm sahəsində əlaqələrin inkişaf etdirilməsi, qarşılıqlı investisiya layihələrinin həyata keçirilməsi müzakirə edilib.

Bölgədə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və infrastruktur layihələri, xüsusilə də Avropanın enerji siyasətinin mühüm komponenti olan "Cənub qaz dəhlizi" üzrə fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov Yunanıstan Xarici İşlər nazirini Azərbaycana səfərə dəvət edib.

* * *

Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu Yorkda BMT Baş Assambleyasının 74-cü iclası çərçivəsində Slovakiya Respublikasının Xarici və Avropa İşləri naziri Miroslav Layçak ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirlər iki ölkə arasında mövcud olan ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıb və əməkdaşlıq gündəliyinin müxtəlif aspektlərini müzakirə ediblər. Nazir M.Layçak yaxın günlərdə Slovakiyanın Azərbaycanda səfirliyinin açılacağını bildirib.

Daha sonra tərəflər ATƏT-in fəaliyyətdə olan sədri qismində Slovakiyanın fəaliyyəti, eləcə də qarşıdan gələn Bratislava Nazirlər görüşü barəsində fikir mübadiləsi aparıblar.

Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatının Bakıda keçiriləcək Zirvə görüşü, yüksək səviyyəli tədbirlə bağlı hazırlıq işlərinin görülməsi, Azərbaycanın bu hərəkata sədrliyi məsələləri ilə bağlı həmkarına məlumat verdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin cari vəziyyəti, iki ölkənin Xarici İşlər nazirləri arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə keçirilən Nyu York görüşü barədə həmsöhbətinə ətraflı məlumat verən nazir Elmar Məmmədyarov məhz Ermənistan rəhbərliyinin məsuliyyətsiz mövqeyi və bəyanatlarının danışıqların irəlilədilməsinə ciddi maneə olduğunu vurğulayıb.

Nazirlər habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

* * *

BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Xarici İşlər naziri Elmar Məmmədyarov Hindistanın Xarici İşlər naziri Subrahmanyam Caişankar ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazirlər iki ölkə arasında əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən iqtisadi, nəqliyyat, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Nazir Elmar Məmmədyarov Azərbaycanın iştirakı ilə bölgədə həyata keçirilən nəqliyyat, bağlılıq layihələri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı haqqında hindistanlı həmkarına məlumat verib, bu layihələrin regional əməkdaşlığa və Şərq-Qərb dəhlizinin inkişafına töhfə verdiyini və yükdaşımaların vaxt və maliyyə baxımından daha effektiv həyata keçirilməsi üçün əlverişli şərait yaratdığını qeyd edib.

Tərəflər həmçinin Qoşulmama Hərəkatının qarşıdan gələn Bakı Zirvə görüşü və Hindistan nümayəndə heyətinin tədbirdə iştirakı məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri müzakirə edilib.

# Nəsimi Festivalı öz işinə başlayıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən ikinci "Nəsimi - şeir, incəsənət və mənəviyyat" Festivalı sentyabrın 28-də Şirvanşahlar sarayında "İrfani sirlər" adlı sərgi ilə öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, saray ərazisini əhatə edən ekspozisiyada mənəvi həyat və ruh təkamülünün sirlərinə həsr olunan videoart, qrafika nümunələri, instalyasiya və kinetik obyektlər təqdim edilir.







Şirvanşahlar sarayına gələrkən bu əsrarəngiz məkanın hələ də açılmayan sirləri olduğunu kəşf etmək mümkündür. Geniş otaqlar, nəhəng sütunların arxasında gizlənən zirzəmiyə dar girişlər, sanki nağıllardakı nəhənglər üçün tikilən həddən ziyadə hündürpilləli və dar dəhlizlər insanda belə təəssürat yaradır. Xəlvətiyyə təriqətinin əsas simalarından olan Seyid Yəhya Bakuvinin türbəsi bu sarayda yerləşir. Xəlvətiyyə dünyadan təcrid üsuludur ki, özünütanıma və dərk etmək mərhələlərindən keçərək, ruhun bədənlə qovuşması üçün uzun müddət tərkidünya olunur.

Sərgi iştirakçılarının əsərləri məhz bu şəkildə saray kompleksinin otaqları və dəhlizlərində yerləşdirilib və sanki izləyicini gizli mənəvi mesajı tapmağa dəvət edir. Bu mədəniyyət abidəsinin sərgi məkanı kimi seçilməsi təsadüfi deyil - əsərlər bu yerin hekayələrini izah edir, qədim daşlarda saxlanan xatirələrə bədii şəkildə şərh verir.

Bu sərgi "Reinkarnasiya" incəsənət layihəsinin ideyasından irəli gələrək yaradılıb. Layihə müasir incəsənət vasitəsilə Azərbaycanın mədəni irs abidələrini yenidən canlandırmaq məqsədi daşıyır.

Sərgidə ölkəmizdən Aydan Mirzəyeva, Aysel Əmirova, Eldar Babazadə, Elşən Qaraca, Elşən Sərxanoğlu, Samir Ramazanov, Tural Muxtarzadə, İrandan Habib Saher, Özbəkistandan Sayyora Muin, Türkiyədən Yesim Ağaoğlunun əsərləri nümayiş olunub.

Sərgi çərçivəsində həmçinin İçərişəhərin tarixi divarlarında İmadəddin Nəsiminin 50 beyti QR kod ilə öz əksini tapıb. Müəllifi azərbaycanlı vizual dizayner Timur Əmirxanovdur.

Qeyd edək ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan festival dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədi daşıyır.

Oktyabrın 1-dək keçiriləcək tədbirlərdə Nəsimi poeziyası, böyük mütəfəkkirin fəlsəfi ideyaları müxtəlif incəsənət növləri və onların ahəngi vasitəsilə tərənnüm ediləcək.

# UNEC-də Heydər Əliyev Fondu tərəfindən təşkil olunan distant Çin dili kursları üzrə dərslərə başlanılıb





## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bununla əlaqədar universitetdə keçirilən təqdimat tədbirində iştirak edib



Sentyabrın 28-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş distant Çin dili kursları üzrə dərslərə başlanılıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bununla əlaqədar universitetdə keçirilən təqdimat tədbirində iştirak edib.

Çin dilini öyrənməyə yeni başlayan azərbaycanlılar üçün nəzərdə tutulan dərslər 1,5 saat olmaqla həftədə 3 dəfə keçiriləcək. Distant təhsil üzrə təlimlər ödənişlidir. Sosial cəhətdən dəstəyə ehtiyacı olan şəxslərin təhsil haqları isə Heydər Əliyev Fondu tərəfindən qarşılanır. Dinləmək, danışmaq, oxumaq və yazmaq dərslərindən ibarət olan elementar səviyyəni bitirən iştirakçılar Çin dilinin ümumi qrammatik quruluşuna bələd olacaq, sadə fikir mübadiləsi aparmaq bacarığında olacaq. Üç ay davam edəcək proqram üzrə təlimlər işdən ayrılmadan distant formada keçiriləcək. Layihənin tərəfdaşları Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutu və Pekin Xarici Dillər Universitetidir. Proqramı müvəffəqiyyətlə bitirən iştirakçılara sertifikatlar veriləcək. Çin dilini öyrənən tələbələr Çində təqaüd proqramları ilə təhsil almaq şansı da əldə edirlər.

Tədbirdə Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasında təhsil alan çinli tələbələrlə birbaşa bağlantı oldu.

Leyla Əliyeva universitetdə yaradılan "24/7 kitabxana" ilə də tanış oldu. Müasir proqram təminatı ilə təchiz edilmiş bu kitabxana ölkəmizdə 7 gün, 24 saat fəaliyyət göstərən ilk kitabxanadır. Üçmərtəbəli kitabxananın ikinci və üçüncü mərtəbələrində ixtisaslaşmış və geniş fonda malik, açıq rəf sistemi ilə tərtib olunmuş oxu zalları fəaliyyət göstərir. Burada məşhur kitabxanaların elektron resurslarına daxil olmaq mümkündür. Tələbələr Milli Kitabxananın 60 min kitab, 140 min qəzet və jurnal, 15 min dissertasiyadan ibarət elektron bazasından da istifadə edə biləcəklər.

# Nəsimi festivalı çərçivəsində "Arqonavtlar" beynəlxalq inklüziv tamaşası təqdim olunub

Sentyabrın 28-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Candoco" və "Lost dog" qruplarının birgə hazırladığı "Arqonavtlar" beynəlxalq inklüziv tamaşası və "Candoco" rəqs qrupunun ifasında "Üz-üzə" və "İkimiz də bilirik" tamaşaları təqdim olunub. AZƏRTAC xəbər verir ki, tamaşaların təqdimatında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.





Birləşmiş Krallığın mədəniyyət resurslarından istifadə edərək incəsənət sahəsində inklüzivliyi təşviq etmiş, Azərbaycanın aparıcı incəsənət və mədəniyyət obyektlərinin əlillər üçün daha əlçatan olması məqsədilə onlarla əməkdaşlıq etmiş və ictimaiyyətin əlillik haqqında düşüncəsini dəyişməyə və daha inklüziv cəmiyyət yaratmağa öz töhfəmizi vermişik.

"Arqonavtlar" tamaşası müxtəlif ölkələrdən olan on nəfər peşəkar və həvəskar, əlilliyi olan və olmayan ifaçının bir araya gələrək necə vahid orqanizm kimi çıxış etməsini nümayiş etdirir. Bu peşəkar ifa 2019-cu ilin iyun ayından sentyabrınadək sənətkarların Kiyevdə olduqları müddətdə hazırlanıb.

Sonra səhnə əsərləri nümayiş etdirilib.

Yasmeen Godderin "Üzüzə" performansı tamaşaçılarda gözqamaşdırıcı obrazlar, cəsur və azad rəqslə ifadəsini tapmış, yaxınlıq və dərin xülyalara həsr edilmiş ehtiraslı və həyəcanverici bir nəğmə təəssüratı yaradıb. Əsərdə urban-hindi musiqisindən geniş şəkildə istifadə olunub.

Xoreoqraf Arlene Fillipsin əsəri olan "İkimiz də bilirik" qısa zaman kəsimlərindən ibarət seriya formasında nəql edilən romantik duetdir. Pop musiqisinin sədaları altında ehtiras və hissiyyatla ifa edilən bu güclü və nəfəskəsici rəqs tamaşaçılara çox vaxt eyni adama necə təkrar-təkrar aşiq olmağı və sevgimizin necə bitməsini göstərir.





Tamaşalar II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində "British Council Azerbaijan"ın təşkilatçılığı, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə təqdim edilib. Əvvəlcə Böyük Britaniyanın ölkəmizdəki səfiri Ceyms Şarp çıxış edərək səhnə əsərləri haqqında məlumat verib. Bildirib ki, tamaşalar inklüzivlik mövzusuna həsr olunub. Diplomat tamaşaların hər kəsdə xoş ovqat yaradacağını söyləyib.

"British Council Azerbaijan"ın direktoru Samr Şah deyib ki, bu, dörd il ərzində Azərbaycan, Böyük Britaniya, Ukrayna və Gürcüstandan əlilliyi olan həvəskar və peşəkar aktyorların ərsəyə gətirdikləri tamaşadır. Biz

İştirakçıların məharət dolu çıxışları tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində professor Aleksey Sitnikovun məruzəsi dinlənilib






İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 28-də Beynəlxalq Muğam Mərkəzində rusiyalı professor Aleksey Sitnikovun "Karmalogic (Karma məntiqi). Taleyin 54 qanunu" mövzusunda mühazirəsi keçirilib.



AZƏRTAC xəbər verir ki, mühazirəni dinləyənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.

Mühazirəsinin əvvəlində Aleksey Sitnikov deyib: "Bu gözəl, öz möcüzəli təmizliyi, mədəniyyəti, tarixi, müasirliyi ilə insanı valeh edən Bakı şəhərinə dəvət edildiyimə görə təşəkkürümü bildirirəm. Təəccüblü deyil ki, məhz bu şəhərdə müdrikliyin və sənətin təntənəsini Nəsimi festivalında qeyd edirik. Nəsimi öz həyatı ilə düşüncənin dəyərlərə, dünyagörüşünə, tarixə söykəndiyini sübut edib. Buna görə də bu festivalın təşkilatçılarına heyranlıqla təşəkkür etmək istəyirəm".

Rusiyalı alim taleyə münasibətdə dini, magik, okkultist, karma, rasionalist modelləri qeyd edib. Hər bir model haqqında ətraflı məlumat verən məruzəçi insan taleyi ilə bağlı bir sıra qanunları diqqətə çatdırıb. Professor Aleksey Sitnikovun fikrincə, məqsəd insan taleyində mühüm amildir. "Əgər insanın məqsədi olmasa, onu başqası idarə edəcək", - söyləyən mühazirəçi, həmçinin şübhə, xaos, ölüm, hazırlıq, bacarıq və digər qanunlar haqqında fikirlərini bölüşüb. Qeyd edib ki, qərar qəbulundan sonra şübhə yolverilməzdir. "Heç bir kurs, mühazirə, kitab insanı lider etmir. İnsanı lider edən həyatdır", - söyləyən professor fikrini həyati misallarla əsaslandırıb. O, daha sonra dinləyicilərin suallarını cavablandırıb.

Aleksey Sitnikov 1962-ci ildə Novosibirskdə anadan olub. Onun təhsil tarixçəsinə Novosibirsk Dövlət Universiteti (ixtisas - insan psixologiyası), Rusiya Federasiyasının Prezidenti yanında Rusiya Dövlət Xidməti Akademiyasında aspirantura və doktorantura, Dövlət İdarəetmə Akademiyasında doktorluq, Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universitetində MBA təhsilləri daxildir. O, Moskva Dövlət Universitetinin, Rusiya Dövlət Xidməti Akademiyasının, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun, Dövlət İdarəetmə Akademiyasının, Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universitetinin professorudur. Altmışdan çox nəşr və tədqiqatın, 11 monoqrafiya daxil olmaqla, psixologiya, akmelogiya, siyasi elmlər, PR üzrə təcrübi işlərin müəllifi və həmmüəllifidir. Rusiyanın ən böyük tədqiqat mərkəzi İSANT-ın (Vəziyyət Təhlili və Yeni Texnologiyalar İnstitutu) təsisçisidir.

# Nəsimi festivalı çərçivəsində Kamera və Orqan Musiqisi Zalında konsert proqramı təşkil edilib







İkinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində sentyabrın 28-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında konsert proqramı təşkil edilib.

AZƏRTAC xəbər verir ki, konsertdə Estoniyanın Tallinn Oğlanları Xoru və Almaniyanın Horizonte Ansamblı çıxış ediblər.

Konsertin tamaşaçıları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.

Konsertdə məşhur bəstəkarlar Kirillus Kreekin, Georg Fridrix Handelin, Volfqanq Amadey Motsartın, Vladimir Vavilovun və digərlərinin əsərləri səsləndirilib.

Klassik musiqi gecəsi tamaşaçılarda böyük maraq doğurub.

# Qafqazın ən qüdrətli ordusu

## 2019-cu ildə Azərbaycanın hərbi təlimlərin sayını artırması Ermənistanda qorxu və həyəcanla qarşılanır



Əvvəli 1-ci səh.

Burada yeni silah növləri sınaqdan çıxarılır, həmçinin qoşun növlərinin döyüş vərdişləri artırılır, yenilənir. Azərbaycan sülhməramlı missiya istisna olmaqla hərbi əməliyyatlarda iştirak etməsə də, mütəmadi olaraq keçirilən hərbi təlimlərdə ordumuzun müasir döyüş vərdişləri artırılır. Hərbi təlimlər Ali Baş Komandan İlham Əliyevin xüsusilə nəzarətindədir. Təsdiq edilən plana əsasən, il ərzində bir neçə dəfə müxtəlif qoşun növlərinin iştirakı ilə hərbi təlimlər keçirilir.

### Üç genişmiqyaslı təlim

2019-cu ilin ötən dövrü Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi çoxsaylı hərbi təlimlərlə əlamətdardır. Ordumuzun ilk genişmiqyaslı təlimləri mart ayında keçirilib. Təlimlərə 10000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub. Qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetiriblər. Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra edilib.

Azərbaycan Ordusunun il ərzində müxtəlif qoşun növlərinin, birlik və birləşmələrin cəlb edilməsi ilə ikinci genişmiqyaslı əməliyyat-taktiki təlimi may ayında keçirilib. Təlimin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi olub. Budəfəki təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub. Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetirilib. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunub.

Sentyabrın 16-dan 20-dək isə müxtəlif qoşun növləri, hərbi birlik və birləşmələrinin cəlb edilməsi ilə ordumuzun növbəti genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilib. Təlimlərə 10000 nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub. Mürəkkəb şəraitdə, dağ-meşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçiriləcək təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra edilib. Təlimdə əsas diqqət qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə yönəldilib. Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçirilib.

Bununla yanaşı, ayrı-ayrı qoşun növlərində də mütəmadi olaraq təlimlər keçirilir. Məsələn, bu ilin fevral ayında Hava Hücumundan Müdafiə hissə və bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilib. Təlimlər zamanı bölmələr şərti düşmənin hava zərbələrinin dəf edilməsi, verilmiş tapşırığa görə qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətlərini məşq etdiriblər.



Aprel ayında Hərbi Hava Qüvvələri helikopter bölmələrinin taktiki-uçuş məşqləri keçirilib. Bu zaman aviasiya vasitələrinin ümumqoşun hissələrinə havadan atəş dəstəyinin həyata keçirilməsi üzrə tapşırıqlar icra edilib. Məşqlərin praktiki hissəsində bazalanma aerodromlarından uçuşlar edən helikopterlər poliqonlarda şərti düşmənin yer hədəflərini döyüş atışları ilə məhv ediblər. Taktiki-uçuş məşqləri zamanı qarşıya qoyulan tapşırıqlar helikopter ekipajları tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.



Bundan başqa, apreldə cəbhə xəttindəki raket və artilleriya birləşmələrinin döyüş atışlı təlimləri reallaşdırılıb. Artilleriya bölmələri marş icra edib, cəmləşmə rayonlarına çıxıb və atəş mövqelərini tutaraq döyüş atışlarını yerinə yetiriblər.

May ayında Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının cəbhəboyu zonada yerləşən bölmələrindən biri "Msta-S" özüyeriyən haubitsalardan döyüş atışları keçirib. Atışlar zamanı müxtəlif məsafələrdə quraşdırılmış şərti düşmənin döyüş texnikası və mühəndis fortifikasiyasını təqlid edən tamölçülü hədəflər məhv edilib.

İyun ayında cəbhə bölgəsində yerləşən hərbi birlikdə döyüş atışlı təlim məşqləri keçirilib. Motoatıcı, artilleriya, tank bölmələri, o cümlədən aviasiya vasitələri müxtəlif tapşırıqları, eləcə də şərti düşmən hədəflərinə döyüş atışlarını icra ediblər.

Avqust ayında ordumuzun birlik və birləşmələrində idarəetmə orqanları və qərargahların döyüş uyarlılığının təşkili, eləcə də heyətlərin əməliyyat və döyüş quruluşunun müxtəlif elementlərinin döyüş tətbiqi üzrə dəqiqləşdirilməsi və yoxlanılması məqsədilə komanda-qərargah təlimləri keçirilib. Təlimlər trenajorlar və döyüş texnikasından geniş istifadə edilməklə xəritələr üzərində və ərazidə, eləcə də qabaqcıl informasiya texnologiyalarının tətbiqi ilə simulyasiya mərkəzlərində təşkil olunub və gedişində dayanıqlı idarəetmə, əməliyyatların hərtərəfli təminatı, həmçinin iştirak edən bütün idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təşkili məsələlərinə xüsusi diqqət yetirilib.

Ötən ay, həmçinin Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib. Birləşmə və hissələrin ştat şəxsi heyəti S-125 zenit-raket komplekslərindən şərti düşmən hədəflərini aşkarlayaraq praktiki şəkildə məhv etmə tapşırığını müvəffəqiyyətlə icra edib.

### Ordumuz beynəlxalq səviyyədə layiqincə təmsil olunur

Bütün bunlardan başqa, Azərbaycan Ordusunun bölmələri xarici ölkələrdə keçirilən hərbi təlimlərdə iştirak ediblər. Fevral ayında Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyədə keçirilən beynəlxalq "Qış təlimi-2019" təlimində iştirak ediblər. Hərbçilərimiz çətin relyefli ərazilərdə, qarlı, şaxtalı havalarda döyüş əməliyyatlarının aparılması tapşırıqlarını uğurla yerinə yetirərək digər ölkələrin bölmələri ilə qarşılıqlı əlaqədə döyüş atışlarını icra ediblər. Qars şəhərində keçirilən məşqlərlə yanaşı, Kayseri şəhərində paraşütçü komandalarımız da ən çətin tapşırıqları praktiki yerinə yetiriblər. Ümumilikdə 16 ölkənin hərbi qulluqçularının cəlb edildiyi təlimdə Azərbaycan hərbçiləri həmişə olduğu kimi yüksək peşəkarlıq nümayiş etdiriblər.

Apreldə isə Azərbaycan Ordusunun nümayəndələri NATO-nun Hərbi Tibb Mükəmməliyyət Mərkəzi və Ruminiya Milli Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən çoxmillətli birgə tibb təlimində iştirak edib. Ruminiyanın təlim mərkəzində 39 ölkədən 2500 nəfərdən artıq nümayəndənin iştirak ilə keçirilən təlimin əsas məqsədi tibbi təminat sisteminin təkmilləşdirilməsi, idarəetmənin qiymətləndirilməsi, hərbi, mülki, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əlaqənin qurulması qaydalarının məşq etdirilməsi olub.

May ayında Türkiyənin Konya şəhərində "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimləri keçirilib. Bu beynəlxalq təlimlərdə Azərbaycan Ordusunun 4 hərbi helikopteri və 60-a yaxın şəxsi heyəti iştirak edib.

Avqust ayında Azərbaycan hərbçiləri "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında uğurla iştirak ediblər. Hərbçilərimiz ölkəmizdə keçirilən "Dəniz kuboku" ilə yanaşı, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda "Hərbi-tibbi estafet" müsabiqələrində ordumuzu layiqincə təmsil ediblər.

### Azərbaycan-Türkiyə dostluğu təlim poliqonlarında

Bu il ərzində Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlığa uyğun olaraq bir neçə birgə hərbi təlim keçirilib. İlk belə təlim mayın 1-dən 3-dək ölkəmizdə keçirilib. "Mustafa Kamal Atatürk-2019" adlı döyüş atışlı birgə taktiki təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaq olub. Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb edilib.

Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq daha bir birgə hərbi təlim iyun ayında Naxçıvanda keçirilib. "Sarsılmaz qardaşlıq-2019" adlanan birgə döyüş atışlı taktiki təlimə 5000-ə qədər şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və hərbi texnika nümunələri cəlb olunub. Bu dəfə məqsəd qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və onların birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq olub.



İki ölkə arasında artıq ənənə halını alan təlimlərdən biri "TurAz Qartalı" adlanır. Sentyabr ayında Azərbaycanda keçirilən bu təlimdə MiQ-29, F-16, Su-25, P-235 "Kasa" təyyarələri, Mi-35, Mi-17, "Sikorski" UH-70, CH-47 "Çinok" və ATAK/AH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edib. Budəfəki təlimlərdə Azərbaycan və Türkiyənin Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetirilib.

Ötən dövrdə Naxçıvanda, həmçinin Naxçıvan Qarnizonu Qoşunlarının birgə iştirakı ilə bir neçə təlim keçirilib. Bu təlimlərdə dövlət sərhədində real və potensial təhdidlərin dəf edilməsi, terrorçuların və qeyri-leqal miqrantların qeyri-qanuni fəaliyyətlərinin qarşısının alınması, sərhədboyu zonada əhalinin və mülkiyyətin qorunması məqsədilə birgə fəaliyyətlər məşq etdirilib. O cümlədən Naxçıvan Qarnizonu Qoşunlarının təlimi mürəkkəb əməliyyat şəraitində döyüşün və onun hərtərəfli təminatının təşkili üzrə idarəetmə orqanlarının uzlaşmış və operativ fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyıb. Nəticələr idarəetmə orqanlarının, komandirlərin və qərargahların yüksək hazırlıq səviyyəsinə malik olduqlarını göstərib.

2019-cu ildə Azərbaycanın hərbi təlimlərin sayını artırması Ermənistanda qorxu və həyəcanla qarşılanır. İlin başa çatmasına isə hələ var və yaxın dövrlərdə ordumuzun növbəti təlimlərinin şahidi olacağıq. Bu təlimlərin hər birində Azərbaycan Ordusunun silahlanmasında olan yeni texnoloji vasitələr və silahlar geniş tətbiq edilir. Silahlı Qüvvələrimiz ən müasir hərbi vasitələrdən yararlanaraq döyüş imkanlarını sürətlə artırır. Bundan ən böyük narahatlıq keçirən isə Ermənistandır. Çünki Ermənistanın siyasi-hərbi dairələri bu təlimlərin son məqsədinin nədən ibarət olduğunu və güclü Azərbaycan qarşısında duruş gətirə bilməyəcəklərini anlayırlar.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İnfrastruktur layihələri uğurla icra edilir

Əvvəli 1-ci səh.

Yeni səhiyyə müəssisələrinin tikilməsi, mövcud xəstəxana binalarında təmir işlərinin aparılması və müasir tibbi avadanlıqların quraşdırılması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bu sahədə də çoxsaylı tədbirlər həyata keçirilir.









Rayonda təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində də işlər uğurla davam etdirilir. Hazırda 264 şagird yerlik Böyük Kəsik kənd tam orta məktəbində son tamamlama işləri görülür. İkimərtəbəli bina fənn kabinetləri, laboratoriyalar, 100 yerlik yeməkxana, idman və akt zalı, kompüter otaqları, Azərbaycanın inkişafını əks etdirən guşə, kitabxana, eləcə də müasir istilik sistemi ilə təchiz edilmiş, həyətyanı sahədə futbol və voleybol meydançaları yaradılmışdır.

Dövlət başçısının sərəncamına uyğun olaraq inşa edilən musiqi mərkəzinin həyətyanı sahəsində yaşıllıqlar salınmış, insanların rahat hərəkəti üçün səkilər yaradılmış və ətrafı yaşıllaşdırılmışdır. Mərkəzin qarşısında müxtəlif konsert proqramlarının təşkili üçün iki səhnə tikilmişdir.

Çoxmənzilli yaşayış binalarının təmiri də diqqət mərkəzindədir. Artıq xeyli vaxtdır ki, dövlət başçısının ayırdığı vəsaitlə çoxmənzilli yaşayış binalarının dam örtüyü tamamilə yenilənmiş, binaların giriş hissəsi əsaslı şəkildə təmir edilmiş, sakinlərin kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülmüşdür. Binaların ətrafı abadlaşdırılmış, işıqlandırma qurğuları ilə təmin edilmiş, istirahət guşələri yaradılmışdır.

Şəhərdəki Ş.Qurbanov və M.Maqomayev küçələrinə asfalt örtüyü salınmışdır. Hazırda Ağstafa-Sadıxlı avtomobil yolunun Poylu kəndi ərazisindən keçən hissəsində genişləndirmə işləri aparılır.

Məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin yenidən qurulması da diqqətdən kənarda qalmamışdır. 2 saylı körpələr evi-uşaq bağçasında əsaslı təmir işlərinə başlanılmışdır. Burada 4 qrupda 75 uşağın tərbiyə olunması üçün lazımi şərait yaradılır. Bina üçün əlavə olaraq bir neçə otaq tikilmişdir.

Məlum olduğu kimi, ölkəmizdə atçılığın inkişaf etdirilməsi üçün genişmiqyaslı işlər həyata keçirilir. Belə təsərrüfatlardan biri Ağstafada yerləşir. Təsərrüfatın yenidən qurulması üçün ölkə rəhbərinin sərəncamı ilə 2015-ci ildə 1,5 milyon manat vəsait ayrılmışdır. Hazırda Dilbaz atçılıq təsərrüfatında yenidənqurma işləri sürətlə davam etdirilir. Burada Dilbaz atları üçün Avropa standartlarına uyğun tövlələr, onları müayinə və müalicə etmək üçün stasionar baytarlıq otağı, yarışlara hazırlamaq üçün cıdır meydanı, yemlərin saxlanması üçün talvar, anbar, işçilərin normal çalışmaları üçün ofis və başqa zəruri binalar inşa edilir. Yenidən qurulan atçılıq təsərrüfatı tam gücü ilə yaxın günlərdə fəaliyyətə başlayacaq.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib

Əvvəli 1-ci səh.

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətindən söhbət açdı. Nazir diqqətə çatdırdı ki, son 6 ildə təhsilin keyfiyyətində xeyli irəliləyişlər əldə edilib. Nailiyyətlərin gedişatını ölçmək üçün Azərbaycan hazırda bir sıra beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir: "Oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatın nəticələri bizim üçün ürəkaçandır. Həmin nəticələrə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində də mühüm addımlar atılır. Son üç ildə beş yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilmə göstəricisi 24 faizdən 75 faizə kimi yüksəlib..."

Ölkədəki mərkəzləşdirilmiş imtahan modelinin yüksək səviyyədə şəffaflıq və rəqabət əldə etməsi baxımından həlledici rolu olub. Azərbaycan Respublikasının təhsil strategiyası, dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban Əliyevanın adıçəkilən sahənin inkişafına dəstəyi əsas amillərdəndir. Heydər Əliyev Fondunun səmərəli təhsil layihələri də öz müsbət nəticəsini ildən-ilə göstərməkdədir.

Professor Hafiz Paşayev çıxışında xüsusi vurğuladı ki, rəhbəri olduğu ADA Universiteti ölkədə ilk dəfə olaraq pilot layihəsi çərçivəsində ali təhsilə qəbul imtahanlarını orta təhsildən məzun imtahanlarının nəticələri ilə birləşdirdi: "Belə ki, bu ildən fəaliyyətə başlayan ADA Məktəbinin məzunları universitetin bakalavr pilləsinə məktəbin yekun daxili orta bal qiymətləndirmə sistemi əsasında qəbul olunacaqlar".

Xüsusi olaraq qeyd edildi ki, sinif mühiti yalnız şagirdlərə bilik və bacarıq vermək deyil, həm də vətəndaş hazırlamaq üçün labüddür.

ABŞ-ın Kolumbiya Universitetindən Amra Sabik-El Rayessin təqdim olunan videomüraciətində 2018-ci ildə ABŞ Departamenti və Azərbaycan Təhsil Nazirliyi tərəfindən onun ölkəmizə işə dəvət edildiyi xatırlandı: "Bu, Azərbaycanın təhsil sistemi, onun imkanları və qarşılaşdığı çətinliklərini öyrənməyim üçün böyük fürsət yaratdı. Uzun illər araşdırdığım sistemlərdən fərqli olaraq, deməliyəm ki, Azərbaycanda təhsilin testlə yoxlanılması sahəsində nəzərəçarpan addımlar atılıb ki, digər ölkələr bundan nümunə götürə bilərlər. Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs kimi Azərbaycanda təhsil sahəsində standartlaşdırılmış test imtahanlarının keçirilməsinə məsuliyyət daşıyır. O, eyni zamanda təhsildə hərəkətliliyə ictimai inamın yenidən qurulmasında aparıcı rol oynayır. Azərbaycana gələndə verdiyim ilk sual DİM-in bunu necə etməsi haqqında olmuşdu. Cavab isə belə idi: DİM subyektiv təsiri minimuma endirmək üçün texnologiyanın tətbiqindən geniş istifadə edir".

Konfransda qeyd edildiyi kimi, DİM ali təhsildə test üsulunun obyektivliyinin və şəffaflığının təkmilləşdirilməsi ilə yanaşı, 2012-ci ildən bəri orta məktəblərdə buraxılış imtahanlarını da standartlaşdırılmış test üsulu üzrə keçirir. 2012-ci ilə qədər məktəblərdə ilk sıralarda olan şagirdlər ali məktəblərə qəbul imtahanlarında heç də həmişə yüksək nəticə göstərmirdilər. İlk baxışdan orta məktəblərdə test üsullu qiymətləndirmənin tətbiqi bir qədər subyektiv görünə bilərdi. Ancaq DİM buraxılış imtahanlarını da bu üsulla keçirməyə başladı. Sonra şagirdlərin həmin imtahanlardakı nəticələri ali məktəblərə qəbuldakı göstəricilərlə uyğunluq təşkil etdi.

Mühüm məqam odur ki, DİM-in təcrübəsi və faktlara əsaslanan yanaşma tətbiq etməsi əksəriyyət tərəfindən etibarlı və obyektiv hesab edilməyən standartlaşdırılmış test imtahanlarına ictimai etimadın yenidən bərpasını sürətləndirdi. Bu isə, öz növbəsində, illər keçdikcə qəbul imtahanlarında iştirak etmək üçün müraciətlərin sayının artmasına, eləcə də kənd yerlərində aztəminatlı və məcburi köçkün ailələrindən olan şagirdlərin ali təhsil alması istiqamətində geniş imkanlara yol açdı. Standartlaşdırılmış test imtahanına ictimai inamın bərpa olunması ilə test imtahanlarına hazırlıq sənayesi yarandı və bu, eyni zamanda Azərbaycan müəllimlərinin iş imkanlarını da genişləndirdi.

Konfransda Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Timsin çıxışından məlum oldu ki, ilkin qiymətləndirmənin düzgün aparılması bütün təhsil sistemlərinin təsirinin dəyərləndirilməsi üçün təməl rolunu oynayacaq: "Dünyada mövcud olan təhsil sistemində yüzlərlə ilkin qiymətləndirmənin fəaliyyət göstərdiyi bir dövrdə niyə bu sahədə böyük irəliləyişləri görmədiyimizi aydınlaşdırmaq ağlabatandır. Cavab budur ki, qarşılaşdığımız çağırışlar son dərəcə ciddidir. Bunların sırasında bir neçə əsas var: uşaqların diqqət yayınıqlığı (qısa konsentrasiyası dövrü), onların çoxunun ilkin təhsilə başlayarkən oxuya və yaza bilməməsi, müvafiq məktəbəqədər tədris planının olmaması, cavabdehlik üzrə testin mənfi nəticələri və uşaqların bilik və bacarıqlarının ibtidai təhsil üzrə ekspertlər tərəfindən dəyərləndirilməsinə qarşı geniş yayılmış narazılıq..."

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN OKTYABR AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 7 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 14 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 21 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 3 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 2 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 10 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 21 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 24 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 23 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 9 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 28 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 24 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 9 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 16 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 2 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 11 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 18 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 15 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 22 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 4 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38, (012) 510-89-14, (012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Bir ömürlük nisgil

## Şəhid xanımının mücadilələrdən keçən uğur yolu

### ◆ Ömür səhifələri

**Həmişə olduğu kimi, həmin gün də işdən evə gəlib yeməyini yeyəndən sonra şəhərdəki vəziyyəti öyrənmək üçün küçəyə çıxdı. Aradan xeyli vaxt keçəndən sonra evə qayıtdı. Xanımının həyəcanlandığını görüb dedi:**

**- Şəhərdə vəziyyət ürəkaçan deyil. Gedim görüm nə baş verir...**

**Xanımı qarşısını kəssə də, onu inadından döndərə bilmədi...**

**Bir neçə saat sonra küçədəki hay-küyə, qıy-qışqırıq, güllə səslərinə yuxudan oyandı. Vahimə ilə yerindən qalxıb ərini səslədi. Cavab gəlməyəndə onun hələ də qayıtmadığını anlayıb, özünü küçəyə atdı... Şəhərdə heç kəs yatmamışdı, hamı təlatüm içindəydi. Vətənin taleyindən xəbər tutmağa gedənlərin çoxundan xəbər yox idi. Bu dəhşətli yanvar gecəsinin qaranlığında onların taleləri də zülmətə qərq olmuşdu...**







1987-ci il aprelin 29-da ailə qurduq. Bakıda yaşamağa başladıq. 1988-ci ildə isə oğlumuz dünyaya gəldi.
Hamı çox sevinirdi. Amma qayınanam sevinsə də, gözlərindən yaş axırdı...

*Səhər açılsa da, həmin gün Azərbaycan xalqının taleyinə qanlı yanvar gecəsi kimi həkk olundu. O qanlı yanvar gecəsi həyat yoldaşı Yanvar Nəsirovu da ömürlük onun əlindən aldı. Və o gecədən sonra onun həyatında hər şey tamam başqa məcraya yönəldi...*

*Qayğısız, dərdsiz, sıxıntısız, "ağ" günlərini... və qadınlığını "bəyaz kəfənə büküb" əri ilə birgə torpağa basdırdı... Birtəhər yoxluğuna dözüb dərddən ölmədi, yaşadı... Yanvarın ocağını boş qoymasın deyə...Oğlunu böyütsün deyə...*

*Bəs oğlunu tək necə böyüdəcəkdi? Heç yerdə işləmirdi axı. Ali təhsil almamışdı. Üstəlik, ölkədə də vəziyyət getdikcə pisləşirdi. Amma necəsə ayaqları üzərinə qalxıb, işləyib, balasını dolandırmalıydı. Həyatının belə bir ağır və qeyri-müəyyən dövründə onun qarşısında yeni qapılar açıldı. Ali məktəbə daxil oldu. Həm təhsil aldı, həm işlədi, həm də elmi işlə məşğul oldu. Və sübut etdi ki, bütün çətinliklərə, yoxluqlara, əziyyətlərə, məhrumiyyətlərə baxmayaraq qadın istəyərsə, qarşısına qoyduğu bütün hədəflərə çata bilər.*

*"Ömür səhifələri"ndə filologiya elmləri üzrə fəlsəfə doktoru, folklorşünas, Bakı Dövlət Universitetinin folklor kafedrasının müəllimi, BDU-nin "Dədə Qorqud" Elmi Tədqiqat Laboratoriyasının elmi işçisi, 20 Yanvar şəhidi Yanvar Nəsirovun həyat yoldaşı Almara Nəbiyevanın mücadilələrlə keçən həyat kitabını vərəqləyəcəyik.*

### "Məəttəl qaldı ki, Gülablıda da xarı bülbül yetişir"

Almara Nəbiyeva 1963-cü il aprelin 5-də Ağdamın Gülablı kəndində dünyaya gəlib. 1980-ci ildə Gülablı kənd orta məktəbini bitirib. 1981-1982-ci illərdə Ağdam şəhər 70 saylı texniki peşə məktəbində təhsil alıb. Deyir, Ağdam - Gülablı mənim üçün vətəndir, həyatın başlanğıcıdır... Uşaqlığı, məktəb illəri, ilk iş yeri, 24 yaşına kimi bütün həyatı orda keçib: "Gülablı əvvəllər Şuşa qəzasının tərkibində olub. Bizim kənddən arxa tərəfdəki yolla Şuşaya at arabası ilə 2 saatlıq yol idi. Ədiblərin də yazılarında var ki, Şuşaya dayələri bizim kənddən aparırdılar. Saf suları, təmiz havası, bərəkətli torpağı vardı. Kəndimiz dörd tərəfdən dağlarla əhatə olunmuşdu. Arxa tərəfdə Çıraxlı, Hacadağlar idi. Kəndin düz ortasından çay axırdı. Gedib Ağdamın Qarqar çayına birləşirdi. Belə bir səfalı torpaqda dünyaya göz açmışam, orda böyümüşəm. Çox dəcəl qız idim. Rəfiqəm Gülbənizlə gedib girirdik şah bağlarına. Armud, qoz, zoğal... bağları sırayla salınmışdı.

Ailədə 6 uşaq idik - 3 bacı, 3 qardaş. Atam o dövrün pedaqoji məktəbinə daxil olsa da, maddi çətinlik ucbatından təhsilini başa vura bilməmişdi. Lakin dünyagörüşü zəngin kişi idi. Anam isə aqronomluq texnikumunda təhsil almışdı. Çox savadlı, dünyagörüşlü qadın idi. Elmə, təhsilə böyük önəm verirdi. Deyirdi, "Almara, səni də oxutduracam. Oğlandan çox qız uşağına oxumaq lazımdır". Ancaq bu arzusunu həyata keçirmək ona qismət olmadı. Mən 9-cu sinifdə oxuyanda anam qəfildən xəstələndi. Atam onu əli çatan həkimlərə aparsa da, heç bir müalicənin köməyi olmadı. Anam ömrünün çiçəkləndiyi dövründə dünyasını dəyişdi. Bu vaxtsız ayrılıq ailəyə ağır zərbə vurdu. Dünya-aləm gözümüzdə söndü. Bu dərdi heç nəylə ovundurmaq olmurdu. Hər yerdə anamızın ətrini, yerişini, duruşunu, əlinin nemətlərini axtarırdıq. Heç birimiz həyatda öz yerimizi hələ tapmamışdıq. Hər dəfə evə gələndə elə bilirdim qarşıma çıxacaq. Özümdən asılı olmayaraq otaqları axtarırdım. Heç cür alışa bilmirdim yoxluğuna".

Anasının ölümü Almaranın həyatdan aldığı ilk ağır zərbə olur. Çox böyük sarsıntı keçirir. Bu ölüm onun həyatını dəyişdirir, hər şey alt-üst olur. Arzusunda olduğu ali təhsil almaq həvəsi sönür. Əlbəttə, anası sağ olsaydı, ali məktəbə daxil olardı, arzularının arxasınca gedərdi. Amma xəyallarının heç birini həyata keçirə bilmir. Yalnız peşə məktəbində oxumaqla kifayətlənir. Oranı bitirəndə kənddə açılan "Gülablı" sanatoriyasının baş həkimi Bəhram Şükürovun qəbuluna gedib, münasib işə götürməyini xahiş edir. Beləcə, ailə qurana kimi sanatoriyada baş aşbazın köməkçisi işləyir: "O sanatoriyaya Azərbaycanın tanınmış ziyalıları, yazıçı, şairləri, musiqiçiləri, rəssamları istirahətə gəlirdi. Biz də onlarla tanış, həmsöhbət olurduq. Yadımdadır, Mirvarid Dilbazi sanatoriyada dincələndə xanımlar meşədən ona xarı bülbül çiçəyi dərib gətirmişdilər. Məəttəl qalmışdı ki, "məgər burda da xarı bülbül yetişir? Mən elə bilirdim tək Şuşa qalasında bitir". Dedik, bizim kəndin arxası Şuşa qəzası olduğu üçün bizdə də yetişir. O çiçəyə həsr olunmuş şeir də yazdı rəhmətlik...

*Çox gəzmişəm sorağında,*
*Doğma vətən torpağında.*
*Gülablının yaylağında*
*Tapdım səni, xarı bülbül.*
*Bizə bahardan hədiyyə,*
*Mən səni gec tapdım niyə!*
*Xarı bülbül deyə-deyə,*
*Ömrüm oldu yarı, bülbül.*
*Bu Gülablı qızlarının*
*Fəxri, iftixarı, bülbül!..*

Mirvarid Dilbazi Ağdamın, Gülablının vurğunu idi. Heç unutmuruq, 1992-ci ildə - o qanlı savaşların getdiyi dönəmdə xalq şairəsi "Gülablıya məktub" şeirini yazdı...

*Sizi unutmadım!*
*Bilir Yaradan*
*Çıxarmı yadımdan*
*O cənnət bağı,*
*Gülablı yaylağı,*
*Abdal bulağı.*
*O başı dumanlı*
*Koroğlu dağı.*
*Ömrümün tez keçən o illərini,*
*Qarabağın dilbər gözəllərini -*
*Sizi and olsun ki, unutmamışam,*
*İndi neyləyim ki, bir qarlı qışam.*
*Ürək - o ürəkdir,*
*Bəs qanad hanı?*
*O dağlar vurğunu, könlü şad hanı?*
*Uçub, bir də görəm o gülüstanı*
*Gəzib o yerləri hey... qədəm-qədəm*
*Müqəddəs torpağı ziyarət edəm.*
*Necədir bir zaman gördüyüm yerlər,*
*Bu vurğun könlümü verdiyim yerlər,*
*O qarlı zirvələr, dərin dərələr,*
*Dumanı yeddi rəng o mənzərələr?*
*Mənim salamımı,*
*Xeyir-duamı,*
*Çatdır vətən adlı qəhrəmanlara*
*Düşmən bağrı yaran o cavanlara.*
*Atalar yurdunu oğullar saxlar,*
*Kişisiz vətəni düşmən ayaqlar.*

Son kitabının müqəddiməsinə "Gözəlliyinə heyran olduğum, şəninə silsilə şeirlər həsr etdiyim Qarabağ torpağı, meşələrinin nəğməsini dinlədiyim, dağlarının havasını udduğum, buz bulaqlarının suyunu içib, qoynunda dincəldiyim Abdal Gülablı cənnəti üzərinə yağdırılan raket, top mərmilərinin ağrısı mənim ürəyimdən keçir" yazan müqtədir söz sənətkarımız Mirvarid Dilbazinin əziz xatirəsi bizlərin, ağdamlıların qəlbində əbədi yaşayacaq.

Bir dəfə də Lətif Kərimov Gülablıya gəlmişdi. Qeyri-adi kişi idi. Məndən soruşdu ki, qızım, adının mənasını bilirsən? Dedim, hə, al zəhər. Qayıtdı ki, yox, yanılırsan. Yadında saxla - italyan dilində "almara" sözü sevgi bolluğu deməkdir".

### "Seyid Lazım ağa dedi, o adam sənin bəxtindir"

Adının mənasından fərqli olaraq, həyatı sevgi bolluğu içərisində keçmir Almara xanımın. Cəmi 3 il sevib-sevilir...

...Aralarında o qədər də yaş fərqi yox idi. Orta məktəbdə Almaranın böyük bacısı ilə bir sinifdə oxusa da, tez-tez rastlaşmırdılar. Tale onları bir yaz günündə rəfiqəsi Gülbənizin evində üz-üzə gətirir. Elə həmin gün də bir-birlərinin qisməti olduqlarını anlayırlar. Ailələri də danışıb razılığa gəlirlər: "Təzə-təzə mən bir az tərəddüd edirdim. Fikirləşirdim bəlkə doğru seçim etməmişəm. Ona görə də bütün Qarabağda hörməti olan seyid Lazım ağanın yanına məsləhətə getdim. O, məqsədimi mən ağzımı açmamış üz-gözümdən bildi və gülümsünüb dedi: "Bilirəm niyə gəlmisən. O adam sənin bəxtindir, qızım. Bunu sənə yazan yazıb.Yazıya pozu yoxdur". Bununla da hər şey həll olundu. 1987-ci il aprelin 29-da ailə qurduq. Toyumuzun xanəndəsi Vahid Abdullayev idi...

Ailə qurandan sonra Bakıda yaşamağa başladıq. 1988-ci ildə isə oğlumuz dünyaya gəldi. Hamı çox sevinirdi. Amma qayınanam sevinsə də, gözlərindən yaş axıdırdı. Özümü saxlaya bilməyib niyə ağladığını soruşdum. Dedi "A qızım, sevinirəm ona görə ki, oğul nəvəm dünyaya gəlib. Qorxuram ona görə ki, Yanvar oğluna dayısı Həsənin adını vermək istəyir. O Həsənin taleyi yaxşı gətirməyib, uşaq vaxtı yetim qalıb. Deyirəm, görəsən bu adın düşər-düşməzi olmaz ki...



Ah-naləm göyə ucalsa da, səbr etdim. Birtəhər bu ölümü qəbul etdim və dərddən ölmədim, yaşadım... Çünki qucağımda iki yaşı tamam olmamış körpə vardı. Onun üçün yaşamalıydım. Ona həm analıq, həm də atalıq etməliydim. Onu böyütməliydim. ...Çox şükür, oğlumu böyütdüm, Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirdi. Artıq ailə də qurub. Beləcə, həyat dayanmır, öz axarı ilə gedir. Sadəcə, gedənlər geri gəlmir...

Hər halda Allah özü bizi xata-bəlalardan saxlasın"... Bu dünyanın qanunudur - gələn gedir. Heç kəs dünyanı tutub dura bilməz. Həyatda təsadüflər də olur, oxşar hadisələr də. Lakin qayınanamın dediyi o sözləri hələ də unuda bilmirəm. Bilmirəm həyatın hər üzünü görən bir qadın uzaqgörənliyi idi, yoxsa həssas qəlbli bir ananın hissləri deyirdi bu sözləri. Amma nə biləydim, bu Həsən də o Həsənin taleyini yaşayacaq, ata həsrəti çəkəcək. Yəqin Allahın yazısı beləymiş".

### "Adamlarla dolu avtobusda güllə bircə ona tuş gəlmişdi"

Almara xanım deyir ki, anasının qəfil ölümündən sonra həyat gözündə onsuz da adiləşmişdi. Amma həyat yoldaşının gedişilə həyat gözündə yenidən söndü... Həyatdan ikinci ağır zərbəni məhz o gün - 1990-cı il yanvarın 20-də aldı: "Axşam saat doqquz olardı. Yanvar bizi evdə qoyub getdi. Mən də uşağı yatırtmağa apardım. Uşaqla bərabər özüm də yuxuya getmişəm. Bir də onda ayıldım ki, sanki zəlzələdir. Küçəni qışqırıq, hay-küy, güllə səsləri başına götürmüşdü. Vahimə ilə yerimdən qalxdım, gördüm Yanvar hələ gəlməyib. Özümü küçəyə atdım. Göydən güllələr ulduz kimi uçub, yerə tökülürdü... İzdihamın içində hamıdan onu xəbər alsam da, Yanvarı gördüm deyən olmadı. Şübhələr ürəyimi didib parçalayırdı. Ağlıma qara fikirlər gəlirdi... Səhər qardaşı evə gəlib, bir xəbər öyrənə bilmədiyini dedi. Həmin an məni bir dəli ağlamaq tutdu. Elə bu an Həsən dünyaya gələndən sonra yığıncaqda qayınanamın adla bağlı dediyi sözlər yadıma düşdü. Ola bilməz deyib, pis fikirləri özümdən uzaqlaşdırmağa çalışdım. Lakin atalar gözəl deyib: "Sən saydığını say..." Qohumlar bütün xəstəxanaları gəzib, yenə Yanvarı tapmadılar.

Sonradan hər şey məlum oldu. Həmin gün baş vermiş hadisələrin şahidi sürücü Vəli danışdı ki, axşam Yanvar yola çıxanda görüb adamlarla dolu avtobus Azadlıq meydanına gedir. Bu zaman avtobusu saxlatdırıb, arxa qapıdan birtəhər içəri keçib. Sanki əcəl onu ölümə sürükləyirdi. Maraqlısı budur ki, o qədər insan içində güllə bircə ona tuş gəlib. Bəxtə, taleyə bax! Yanvar ayında dünyaya gələn Yanvar elə həmin ay da bu dünyadan köçüb getdi... O günlərdə yaşadığım hissləri sözlərlə ifadə eləmək çətindir... Yoxluğuna inana bilmirdim heç cür. Gözlərim yollara baxmaqdan yorulurdu... Ah-naləm göyə ucalsa da, səbr etdim. Birtəhər bu ölümü qəbul etdim və dərddən ölmədim, yaşadım... Çünki qucağımda iki yaşı tamam olmamış körpə vardı. Onun üçün yaşamalıydım. Ona həm analıq, həm də atalıq etməliydim. Onu böyütməliydim. Amma işsiz və təhsilsiz bir qadın üstəlik, ölkənin də ağır vəziyyətində bunu necə edəcəkdi? Bilmirdim nə edim, kimə deyim dərdimi, vəziyyətdən necə çıxış yolu tapım. Bu fikirlərlə axşamı səhərə, səhəri axşama vurub yollar axtarırdım. Və bir gün bu yolu Allah mənə açdı".

### "İllər sonra o uşaqlıq arzumu həyata keçirdim"

Bir gün gözləmədiyi zamanda qapı döyülür. Qənşərdə tanımadığı dörd nəfər vardı. Özlərini təqdim edərək, Bakı Dövlət Universitetindən gəldiklərini dedilər. Şəhid xanımı kimi nəyə ehtiyacı olduğunu soruşdular, vəziyyətlə maraqlandılar. Həmin gün onun taleyində dönüş yarandı: "Ürəyimdəkiləri danışdım tanımadığım o insanlara. Həmin günlər hamı üçün çətin idi. Və həmin günlərdə qapımı bizlə maraqlanan insanlar döymüşdü. Bu, həm xalqımızın mürdrikliyini, həm də Bakı Dövlət Universitetinin böyük kollektivinin qayğıkeşliyini göstərirdi. Özüm də inana bilmirdim onlara. Həmin gün həyatımın axarı dəyişdi. Məni universitetə işə götürdülər".

Almara Nəbiyeva 1990-cı ildə BDU-nun fizika fakültəsinin ümumfizika kafedrasında baş laborant preparatoru kimi işə başlayır. Elə işləyə-işləyə də imtahanlara hazırlaşır. Məktəb illərində arzusunda olduğu ixtisası seçmək qərarına gəlir: "Uşaq vaxtından Azərbaycan dili-ədəbiyyatı fənnini çox sevirdim. O sevgini Şiraslan müəllim aşılamışdı. Bizim evdən məktəbə bir kilometr yol idi. Hər dəfə yolda müəllimlə rastlaşanda çantamı götürüb aparırdı. Onun diqqəti sayəsində bu fənni sevmişdim. Mən də dil-ədəbiyyat müəllimi olmağı arzulayırdım. Amma o vaxt arzularım yarımçıq qaldı. İllər sonra mən o uşaqlıq arzumu həyata keçirdim. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil oldum. Qiyabi oxuyurdum, işləyirdim, oğlum da bağçaya gedirdi".

### "20 nəfər ikiotaqlı mənzildə qalırdıq..."

1992-1993-cü illərdə isə Almara Nəbiyeva həyatının üçüncü ağır zərbəsini aldı. Doğulub boya-başa çatdığı Gülablı kəndi 1992-ci ilin sentyabrında, bütünlükdə Ağdam isə 1993-cü ilin iyulunda erməni qəsbkarları tərəfindən işğal olunur. Ailəsi, qohum-əqrəbaları doğma yurd-yuvalarından didərgin düşür. Bakıda qalmağa yerləri olmayan qohumlarının hamısı Almara xanımın evində məskunlaşır: "Nənəm Mehparə 1918-ci ildə cavan gəlin idi. O dövr ermənilərin vəhşiliklərinin şahidi olmuşdu, qaçhaqaçı görmüşdü. Ona görə də Qarabağ müharibəsi başlayanda qorxusundan gecələr yata bilmirdi. Nənəm, atam, analığım, bacım... Təxminən 20 nəfər ikiotaqlı mənzildə bir neçə il yaşadıq. Məşəqqətli dövr idi. Bütün ölkədə qanlı-qadalı illər idi. Hamı çətinlik çəkirdi. Uşaqları yaşadığımız əraziyə yaxın olan bağça və məktəblərə yerləşdirdik. Çətinliklə də olsa, qohumlar işlə təmin olundular. Onda hamımız yerdən yataq salıb yatırdıq. Dayımın kiçik qızı rayonda qalmışdı. Oğlum deyirdi, ana onlar da gəlsin bizə. Soruşurdum bəs harda yatacaqlar, yer yoxdu axı. Deyirdi, onlar da stolun altında yatarlar. Bir sözlə, mən Bakıya təyyarə ilə gəldimsə, doğmalarım qatarla gözü yaşlı, məcbur qaçdılar".



Ağdam - Gülablı mənim üçün vətəndir, həyatın başlanğıcıdır... Gülablı əvvəllər Şuşa qəzasının tərkibində olub. Bizim kənddən arxa tərəfdəki yolla Şuşaya at arabası ilə 2 saatlıq yol idi. Saf suları, təmiz havası, bərəkətli torpağı vardı. Kəndimiz dörd tərəfdən dağlarla əhatə olunmuşdu. Kəndin düz ortasından çay axırdı. Gedib Ağdamın Qarqar çayına birləşirdi...



O qədər insan içində güllə bircə ona tuş gəlib. Bəxtə, taleyə bax! Yanvar ayında dünyaya gələn Yanvar elə həmin ay da bu dünyadan köçüb getdi...

Almara xanım 1995-1997-ci illərdə Folklor kafedrasında laborant, 1997-2012-ci illərdə baş laborant vəzifəsində çalışır. 1999-cu ildən həmin kafedrada müəllim işləyir. Eyni zamanda elmi işlə məşğul olur. 2012-ci ildən universitetin "Dədə Qorqud" Elmi Tədqiqat Laboratoriyasının elmi işçisidir. Elə həmin il folklorşünaslıq ixtisası üzrə "Müasir dövr aşıq yaradıcılığı (Qarabağ aşıq mühiti materialları əsasında)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Filologiya elmləri üzrə fəlsəfə doktorudur. 30-dan çox elmi və publisistik məqalənin müəllifidir. Hazırda isə doktorluq üzərində çalışır. Bir sözlə, gəncliyi, həyatı mücadilələrlə, mübarizələrlə, çətinliklərlə keçib. Amma heç kəsə ağız açmayıb, 20 Yanvar şəhidinin xanımı olduğunu əlində bayraq etməyib: "Sağ olsun bacı-qardaşlarım. Həyatımın ən çətin dönəmlərində mənə kömək etdilər, əl tutdular. Çox çətinliklərim olub. Amma özümə sığışdırmamışam kiməsə zəng vurub deyim ki, nəyəsə ehtiyacım var. Yaxud şəhid xanımı olmağımdam istifadə etməmişəm. İnsan gərək özünə hörmət etsin ilk növbədə. Kiminsə qapısını döymək, ağız açmaq təbiətimdə yoxdu. Mən heç oğlumun da yanında ağlamamışam. Ac-susuz olduğumu balama göstərməmişəm. O, atasının şəhid olduğunu da bilmirdi. Demişdik atan müharibədədir. 4-cü sinifdə dərslikdə atası haqda məlumat vardı. Həmin dərs keçirilən gün oğlumu məktəbə göndərmədim. Dedim, birdən dərs keçiriləndə özünü pis hiss edər. Elə həmin gün qarşıma qoyub danışdım, izah etdim. Hər uşaq atasının yanında olmasını istəyər, əlbəttə. Amma gücüm çatan qədər qoymamışam sıxıntı çəksin, başqa uşaqlardan geri qalsın. Çox şükür, oğlumu böyütdüm, Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirdi. Artıq ailə də qurub. Beləcə, həyat dayanmır, öz axarı ilə gedir. Sadəcə, gedənlər geri gəlmir... Bir də həyatda insana yalnız elədiyi yaxşılıqlar qalır, başqa heç nə".

### "Ötən günlərimi qaytaraydılar..."

İnsan yaşadıqca həyatdan gözləntiləri, arzuları da yenilənir, istəkləri bitib tükənmir. Amma hər kəsin ürəyində bir ümdə arzusu olur. Almara Nəbiyeva da illərdir qəlbində bir arzu ilə yaşayır - Ağdama, Gülablıya heç olmasa bircə dəfə yenidən ayaq basmaq: "Kəndimizi tez-tez yuxuda görürəm. Həyətimizi, bağ-bağatımızı, kəndin ortasından axan çayı... Gah görürəm o çayda üzürəm, gah hansısa dağa çıxıram... Hər dəfə ötən günləri yada salanda xatirələr adamı doğma yerlərə çəkib aparır. Yaşa dolduqca həmin xatirələr daha da şirinləşir, doğmalaşır insan üçün. Elə bir insan yoxdur ki, uşaqlıq, gənclik illərini xatırlamasın. Doğulub boya-başa çatdığı kəndin şirin xəyallarının qanadlarında dolanmasın. İllər ötür, bu xatirələr də səninlə yaşayır, o yerlərin insanları, dağı-daşı, bağı-bağatı ömürlük yaddaşına köçür. Hələ də kəndimizin həsrətini çəkə-çəkə, yollara baxa-baxa gözləri yolda qalmışam. Hər bahar fəsli gələndə qəlbimdə o yerlərin gözəl təbiətini, buz kimi bulaqlarını, təmiz havasını, çiçəklərinin ətrini, quşların cəh-cəhini bütün varlığımla duymaq həsrəti baş qaldırır. Ürəyimdən keçir ki, bir kəndə getsəydim, barlı-bağatlı torpağıma ayağım dəysəydi, yeri-yurdu dolanıb gəzsəydim... İllərdir, bu böyük xoşbəxtlik əlimdən çıxıb. Amma hələ ümidimi üzməmişəm. İnanıram ki, üzümə az gülən taleyim heç olmasa bu dəfə mənə xoş baxacaq"...

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***

# Azərbaycan yenə də ən islahatçı ölkələr sırasında yer aldı

Əvvəli 1-ci səh.

Biznes mühitinin yaxşılaşdırılması sahəsində də mühüm addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı Azərbaycanın bu sahədəki fəaliyyətini də yüksək qiymətləndirir. Aparıcı beynəlxalq maliyyə qurumlarının ölkəmizin fəaliyyətinin dəyərləndirilməsi yeni investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır.

Azərbaycan "Doing Business"in hesabatında yenə də aparıcı yer alıb. Hesabata əsasən, ölkəmiz "Doing Business" üzrə dörd sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı asanlaşdırıb. Bunlar əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması və müqavilələrin icrasının təmin edilməsidir.

Hesabatda eləcə də bildirilir ki, Bakının kadastr xəritəsinin tərtib olunması və paytaxtdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, həmçinin mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib. Minoritar investorların hüquqlarının müdafiəsi tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyətin direktorları üzərinə qoyulmasından sonra güclənib. Kommersiya ilə bağlı mübahisələr yarandıqda tərəflər onlayn olaraq müraciət göndərə və vasitəçilik etmək üçün maddi stimul əldə edə bilərlər.

Bir daha qeyd edək ki, Azərbaycan "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci yerə yüksəlib.

Bütün bunlar göstərir ki, Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar düzgün düşünülmüşdür və məqsədyönlüdür. Uğurlu nəticələr də məhz bu amillərə əsaslanır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Noyabrın 1-dən şəxsiyyət vəsiqələri yaşayış yeri üzrə qeydiyyatdan asılı olmayaraq veriləcək

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov şəxsiyyət vəsiqələrinin verilməsi sahəsində vətəndaş məmnunluğunun artırılması ilə bağlı əlavə tədbirlər barədə əmr imzalayıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əmrə əsasən, ərazi polis orqanlarının və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən Daxili İşlər Nazirliyinin qeydiyyat məsələləri qurumlarının əməkdaşları tərəfindən Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi cari il noyabrın 1-dən yaşayış yeri üzrə qeydiyyatdan asılı olmayaraq veriləcək.

Qeyd edək ki, Azərbaycan Prezidentinin müvafiq fərmanına uyğun olaraq, 2013-cü ilin sentyabrından tətbiqinə başlanılmış elektron daşıyıcısı olan ümumvətəndaş pasportları da vətəndaşlarımıza elə həmin ildən etibarən yaşayış yerindən asılı olmayaraq, hər bir "ASAN xidmət" mərkəzində və ərazi polis qurumunda verilir.

Ümumilikdə Daxili İşlər Nazirliyinin fəaliyyətinin bütün istiqamətlərində vətəndaşlara yüksək standartlara uyğun xidmətin göstərilməsi üçün zəruri tədbirlər görülür.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# *"Nezavisimaya qazeta"*: "Paşinyan rejimi ölkədə qarşılıqlı nifrət ab-havası yaradıb"

2018-ci ilin aprelində Ermənistanda "məxməri inqilab" adlanan siyasi fırıldaq nəticəsində hakimiyyət keçmiş prezident Serj Sarkisyandan Nikol Paşinyana keçib. Lakin bu hadisədən ilyarım keçsə də, Ermənistan demokratik ölkəyə çevrilməyib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Rusiyanın "Nezavisimaya qazeta" nəşrindəki məqalədə yer alıb. Qəzet yazır ki, Ermənistan konstitusiya və qanunlarla deyil, qeyri-hökumət təşkilatlarının nizamnamələri ilə idarə olunur. Keçmiş prezident Sarkisyan 2010-2017-ci illərdə bilərəkdən ölkədə Qərb fondları, qeyri-hökumət təşkilatları və təriqətləri üçün "yaşıl işıq" yandırıb. Məqsəd isə dövlətçiliyin zəiflədilməsi olub.

Ermənistanda Corc Sorosun Açıq Cəmiyyət Fondu, "İeqovo şahidləri" təriqəti və digər belə təşkilatlar fəaliyyət göstərir. Ümumilikdə, ölkədə 3,5 mindən çox qeyri-hökumət təşkilatı var ki, onların da əksəriyyəti Qərb ölkələri tərəfindən maliyyələşdirilir. Ermənistanın hazırkı hökumətində Qərb qeyri-hökumət təşkilatlarının əməkdaşları işləyir. Məsələn, baş nazirin müavini, bir çox nazirlər, o cümlədən LQBT birliyinin lobbiçisi, mədəniyyət və idman naziri Araik Arutyunyan, təhlükəsizlik şurasının katibi, parlamentin sədri və müavini xarici ölkələrin xüsusi xidmət idarələrinin agentləridir. Rusiya ilə münasibətlərdə isə Paşinyan hökumətinin davranışı qeyri-müəyyəndir.

Məqalədə qeyd olunur ki, Ermənistan hökuməti hakimiyyət strukturlarına Rusiyadakı erməni diasporunun nümayəndələrini inteqrasiya etmək niyyətində deyil. Diaspor üzrə komissar vəzifəsinə ABŞ vətəndaşı Zare Sinanyanın təyin edilməsini yazının müəllifləri Rusiyadakı erməni diasporuna sillə kimi qəbul edirlər. Onların fikrincə, erməni xalqını parçalamağa çalışan Paşinyan rejimi ölkədə qarşılıqlı nifrət ab-havası yaradıb, demokratik cəmiyyət qurmaq adı altında insanların hissləri ilə oynayır. Yeni hakimiyyətin elan etdiyi sevgi və barışıq inqilabı bir çox ictimai və siyasi xadimlərlə haqq-hesab çürüdür, məhkəmə sistemi güclü təzyiqlərə məruz qalır, saxtalaşdırılmış cinayət işləri Ermənistanı avtoritar dövlətə çevirir.

Paşinyan daxili və xarici siyasətdə özünün qeyri-müəyyən hərəkətləri ilə Ermənistan milli təhlükəsizliyi üçün təhdidlər yaradır. O, Sorosla bağlı iki fonda hökumət fondundan böyük məbləğdə vəsait ayırır, ekoloji təhlükə yaradan "Amulsar" qızıl yatağının yenidən işlənilməsi barədə qərar verir, öz rejiminə yararsız insanları siyasi meydandan açıq-aşkar uzaqlaşdırmağa çalışır.

"Nezavisimaya qazeta" yazır ki, son zamanlar Paşinyan "Sasna tserer" terror təşkilatı ilə əlaqələr qurmağa başlayıb. Onlar 2016-cı ildə Paşinyanın birbaşa əmri ilə Yerevan post-patrul xidmətinin binasını zəbt etmişdi. Hadisə nəticəsində ölənlər olsa da, təşkilat üzvlərinə heç bir cəza verilməyib.

# Ermənistandakı acınacaqlı vəziyyət italyan jurnalistin gözü ilə

"Uzun çirkli yollar. Boş, məhv olunmuş sahələr. Dəmir, hətta kirəmit dam örtükləri olan, kərpicdən tikilmiş evlər. Ermənistanın paytaxtından kənara çıxan kimi özünü sonsuz yoxsulluğun içində tapırsan...."

AZƏRTAC xəbər verir ki, bu sözləri italyan Katolik kilsəsi və "Caritas Roma" təşkilatının dəstəyi ilə maliyyələşdirilən iki layihənin icrası ilə əlaqədar Ermənistanda səfərdə olmuş İtalyan Katolik Həftəlik Qəzetləri Federasiyasının (FISC) jurnalistlərindən biri M.Chiara Biagioni səfərindən sonra yazdığı, FISC-in internet səhifəsində yerləşdirilmiş və "Sir" İnformasiya Agentliyinin də yaydığı məqalədə qeyd edib. Jurnalist vurğulayıb ki, 8 milyonluq dəyəri olan sözügedən layihələr yoxsulluqdan əziyyət çəkən Ermənistanda köməyə ehtiyacı olan əsasən uşaqlara və yaşlılara yardıma yönəlib.







Məqaləsində səfər zamanı Ermənistanda (İrəvanın Türkiyə ilə sərhəd əyalətlərindən biri olan Artaşat, habelə Gümrü şəhərində) üzləşdiyi yoxsulluğu və acınacaqlı vəziyyəti təfərrüatlı şəkildə təsvir edən jurnalist yerli əhali ilə söhbətinə istinad edərək bu vəziyyəti, xüsusilə də ətraf bölgələrdə yaşayan ermənilərin yaşam tərzini "ağ soyqırımı" adlandırıb.

"Caritas Roma" təşkilatının Artaşat ofisinə gəldikdə isə jurnalist ofisin yoxsul evlərin arasında bir qədər kənarda yerləşdiyini, mütəmadi olaraq burada işləyən 20-yə yaxın könüllünün əyalətdəki yaşayış vəziyyətləri çox ağır, əşyasız və su problemləri olan evlərdə acınacaqlı vəziyyətdə yaşayan, övladları tərəfindən tərk edilmiş yaşlıları ziyarət etdiklərini, onlara tibbi yardım göstərdiklərini, hər 15 gündən bir yağ, pendir, düyü, şəkər və digər ehtiyacları qarşılayacaq bağlamalarla təmin etdiklərini bildirib. Jurnalist tənhalığa düçar olmuş yaşlılarla bağlı acınacaqlı vəziyyəti hazırda Ermənistanda gənclərin iqtisadi böhranla əlaqədar olaraq ölkəni tərk etməsi və valideynlərin tənhalıq içində qocalması ilə əlaqələndirib. Jurnalist layihə çərçivəsində orada yoxsulluq içində yaşayan, dağılmış ailələrdən gələn 7-17 yaşarası yetim uşaqlara dəstək üçün "Piccolo Principe" (Kiçik Şahzadə) mərkəzinin də fəaliyyət göstərdiyini qeyd edib. O, uşaqların yoxsulluq, antisanitariya şəraitində yaşam nəticəsində yaranan xəstəliklərdən əziyyət çəkdiyini də diqqətə çatdırıb. "Sizin İtaliyanın buradakı insanlar üçün necə bir yaxşılıq etdiyindən təsəvvürünüz belə yoxdur. Bu pullar həyata ehtiyacı olan insanlara ümid gətirir. Sizin üçün həmin pullar sadəcə rəqəmdir, buradakılar üçün isə həyatdır" deyə jurnalistlə söhbətində erməni-katolik kilsəsinin yepiskopu Rafael Minasian bildirib.

İtaliyalı jurnalist Ermənistanın qərb sərhədlərinə başqa ölkənin əsgərlərinin nəzarət etdiyini və onların sərhəddən giriş və çıxışı qadağan etdiyini, eyni vəziyyətin şərq sərhədlərində də mövcud olduğunu vurğulayır. O, Ermənistanın Azərbaycanla müharibə şəraitində olmasının ölkəni mütəmadi şəkildə gərginlikdə saxladığını, istər qərb, istərsə də şərq sərhədlərinin bağlı olmasının malların tranzitinə, ticarətin inkişafına mane olduğunu, bu vəziyyətin də ölkəni ciddi iqtisadi böhrana gətirib çıxardığını diqqətə çatdırır. Analitiklərin fikrinə istinad edən jurnalist Azərbaycan ilə yekun bir razılığın əldə edilməyəcəyi və Türkiyə ilə münasibətlərin yaxşılaşmayacağına qədər vəziyyətin dəyişməyəcəyini bildirib.

Məqalələrə keçid aşağıdakı linklər vasitəsilə mümkündür:

https://www.agensir.it/mondo/2019/09/19/armenia-nella-periferia-di-artashat-la-chiesa-a-fianco-dei-poveri/

https://www.fisc.it/2019/09/23/armenia-continua-il-viaggio-scoperta-dei-progetti-8xmille/

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin oktyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vilayət Zahirov** Ədliyyə nazirinin müavini | 03 | Xaçmaz |
| **Əhməd Əhmədzadə** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 04 | Lənkəran, Astara |
| **Zakir Quliyev** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC sədrinin müavini | 04 | Cəlilabad |
| **Rafiq Aslanov** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC sədrinin müavini | 04 | Masallı |
| **Əkbər Hacıyev** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktoru | 04 | Salyan |
| **Ramil İsgəndərov** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 04 | Sabirabad, Saatlı |
| **Ruslan Əliyev** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 04 | Şirvan, Hacıqabul |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 08 | Füzuli, Beyləqan, İmişli |
| **Sahil Babayev** Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 11 | Tərtər, Ağdam |
| **Anar Kərimov** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 11 | Bərdə |
| **Mətin Kərimli** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 11 | Ağcabədi, Laçın |
| **Azad Rəhimov** Gənclər və İdman naziri | 11 | Şirvan, Hacıqabul |
| **İntiqam Babayev** Gənclər və idman nazirinin müavini | 11 | Sabirabad, Saatlı |
| **İsmayıl İsmayılov** Gənclər və İdman nazirinin müavini | 11 | Salyan, Neftçala |
| **Ramin Quluzadə** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 11 | Mingəçevir, Ağdaş |
| **Əli Abdullayev** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 11 | Yevlax |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 11 | Göyçay, Ağsu |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 11 | Zərdab, Ucar |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 11 | Kürdəmir |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 11 | Ağdam, Füzuli |
| **Ceyhun Həsənov** Ədliyyə nazirinin müavini | 11 | Gəncə |
| **Vüqar Əhmədov** "Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 11 | Goranboy, Naftalan |
| **Ramil Yusifov** "Azərişıq" ASC-nin sədr müavini | 11 | Bərdə, Tərtər |
| **Bəhram Xəlilov** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 11 | Samux, Gəncə, Daşkəsən, Göygöl, Gədəbəy |
| **Sahir Məmmədxanov** Vergilər nazirinin birinci müavini | 15 | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Biləsuvar |
| **Şahin Mustafayev** İqtisadiyyat naziri | 17 | Balakən |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 17 | Zaqatala |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 17 | Qax |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 17 | Sumqayıt, Abşeron, Şuşa, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Xocavənd, Xocalı |
| **Pərviz Şahbazov** Energetika naziri | 18 | İmişli, Biləsuvar |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 18 | Ağdam, Ağcabədi |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 18 | Beyləqan, Füzuli |
| **Mikayıl Cabbarov** Vergilər naziri | 18 | Sumqayıt, Abşeron, Siyəzən, Xızı, Qubadlı, Zəngilan, Şuşa |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 18 | Ağcabədi |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 18 | Şəki, Qax |
| **Hikmət Mirzəyev** Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 18 | Masallı |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 18 | Qazax, Ağstafa |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 18 | Tovuz |
| **Qorxmaz Hüseynov** "Azərsu" ASC-nin sədri | 18 | Lənkəran, Astara, Lerik |
| **Oruc Zalov** Daxili İşlər nazirinin müavini | 19 | Bərdə, Naftalan, Füzuli, Beyləqan, Xocavənd, Şuşa, Ağcabədi, Laçın, Ağdam, Tərtər, Goranboy, Xocalı |
| **Mətin Eynullayev** Vergilər nazirinin müavini | 21 | Bərdə, Mingəçevir, Yevlax, Şəki, Ağdam, Tərtər |
| **Teyyub Cabbarov** "Azərsu" ASC-nin sədrinin birinci müavini | 21 | Biləsuvar, Cəlilabad, Cəbrayıl |
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 22 | Lənkəran, Astara |
| **Aynur Sofiyeva** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 22 | Lerik, Yardımlı |
| **Etibar Məmmədov** "Azərsu" ASC-nin sədr müavini | 22 | Masallı, Yardımlı |
| **Rüstəm Şahbazov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 23 | Goranboy |
| **Sahib Ələkbərov** Vergilər nazirinin müavini | 24 | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Sabirabad, Saatlı |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 25 | Mingəçevir |
| **Zakir Qaralov** Baş prokuror | 25 | Siyəzən, Xızı |
| **Muxtar Babayev** Ekologiya və Təbii Sərvətlər naziri | 25 | Goranboy, Yevlax, Ağdaş |
| **Firdovsi Əliyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 25 | Naftalan |
| **Rauf Hacıyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 25 | Mingəçevir |
| **Kəmaləddin Heydərov** Fövqəladə Hallar naziri | 25 | Neftçala |
| **Rəfail Mirzəyev** Fövqəladə Hallar nazirinin birinci müavini | 25 | Hacıqabul |
| **Etibar Mirzəyev** Fövqəladə Hallar nazirinin müavini | 25 | Saatlı |
| **İnam Kərimov** Kənd Təsərrüfatı naziri | 25 | Oğuz, Qəbələ |
| **İlham Quliyev** Kənd Təsərrüfatı nazirinin müavini | 25 | Qax, Şəki |
| **Seyfəddin Talıbov** Kənd Təsərrüfatı nazirinin müavini | 25 | Zaqatala, Balakən |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 25 | Ucar, Zərdab |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 25 | Göyçay |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 25 | Ağdaş |
| **Ceyhun Bayramov** Təhsil naziri | 25 | Sabirabad, Saatlı |
| **Firudin Qurbanov** Təhsil nazirinin müavini | 25 | İmişli, Beyləqan |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 25 | Yevlax, Ağdaş |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 25 | Bərdə |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 25 | Mingəçevir |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 25 | Naftalan |
| **Rafiq Cəlilov** Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 25 | Göygöl |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 25 | Ağcabədi, Bərdə, Tərtər, Ağdam |
| **Fuad Hüseynov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | Bərdə |
| **Vilayət Eyvazov** Daxili İşlər naziri | 26 | Gəncə, Kəlbəcər, Samux, Göygöl, Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 29 | Cəlilabad |
| **Səyavuş Heydərov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 29 | Lerik |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 29 | Yardımlı |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 31 | Şabran |

**Qeyd: Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.**

Dünya olduğu kimi

# Qədim türbə üzərindəki Təzəpir



**XIX əsrin sonlarında müsəlmanlar Bakı quberniyasına müraciət edərək İçərişəhər qala divarlarının yanında, indiki Sabir bağının yerində məscid tikilməsinə icazə verilməsini xahiş edirlər. Lakin məscidin orada deyil, o vaxt şəhərin kənarı sayılan Yuxarı Dağlı məhəlləsində tikilməsi ilə bağlı qərar verilir. İcazə alandan sonra isə qalır vəsait tapmaq məsələsi. Bu işi dövrün ziyalı, vətənpərvər xeyriyyəçi xanımı Nabat Aşurbəyli öz öhdəsinə götürür... Xeyli çətinliklərlə üzləşdiklərinə görə tikintisi 9 il uzanan bu məscid indi bütün Şərqdə əsrarəngizliyi ilə göz oxşayan, Qafqazın dini mərkəzi hesab olunan Təzəpir məscididir...**

## Təzəpirin çoxəsrlik tarixi

Bir əsrdən çox yaşı olan bu əzəmətli tikilinin maraqlı tarixi var. Bura əvvəllər ziyarətgah olub. Ziyarətgahın tarixinin XIV-XV əsrlərə gedib çıxdığı deyilir. Tədqiqatlara görə, məscidin dərin süxur qatları altında mövcud olan türbə zəmanəsinin görkəmli alimi və övliyası Əbu Seyid Abdullaya məxsus olub. Ziyarətgahın yerləşdiyi məkan ötən əsrin ortalarına qədər "Xəlfədam" adı ilə tanınırdı. Hazırda isə bu yer Təzəpir məscidinin yerləşdiyi ərazidir.

Zaman keçdikcə Əbu Seyid Abdullanın türbəsi dağıntılara məruz qalıb. Lakin pirin kəramətinə böyük etiqad göstərən insanlar onun tamamilə dağılmasına imkan verməyiblər. Buranın müqəddəsliyinə tapınan insanlar zaman-zaman bu yeri ziyarət ediblər. Elə ona görə də ziyarətgah bir neçə dəfə Bakı əsilzadələri tərəfindən məscid kimi təmir olunub. 1817-ci ildə sonuncu Bakı xanı Hüseynqulu xanın kürəkəni Qasım bəy məscidi əsaslı bərpa etdirib.

İbadətgahın əsl tikintisi isə XX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, varlı möminlərdən sayılan Nabat Xocabəy qızı Aşurbəyli-Rzayevanın fədakarlığı və xeyirxahlığı sayəsində 1905-ci ildə məscidin ilk bünövrə daşı qoyulur. Türbə üzərində yeni məscid tikildiyinə görə xalq arasında bu tikili Təzəpir məscidi adlanmağa başlayır. Deyilənlərə görə, Seyid Yəhya Bakuvinin nəslindən olan bu qadın ikimərtəbəli məscid tikdirməyi əhd edibmiş. O, əhdinə sadiq qalaraq həyat yoldaşı və atasından aldığı miras hesabına, sonuncu zinət əşyasına qədər satıb, birmərtəbəli məscid binasının yerində yeni ibadətgah tikdirir. Nabat xanım məscidin layihəsini hazırlamağı Azərbaycanın ilk təhsilli memarı olan Zivər bəy Əhmədbəyova həvalə edir. Hətta Zivər bəyi öz vəsaiti ilə Şərq ölkələrində yerləşən ən gözəl məscid komplekslərini ziyarət etməyə göndərir ki, onların tikiliş tərzlərini canlı şəkildə görsün və gəlib Azərbaycanda onlardan daha da möhtəşəm bir işə imza atsın. Səyahətdən sonra Zivər bəy ona arzuladığı hündür ikimərtəbəli minarəsi olan yaraşıqlı məscidin layihəsini təqdim edir. Bu layihəyə əsasən, məscid hündürlüyünə və əzəmətinə görə Yaxın Şərqin ən möhtəşəm dini abidələrindən biri olmalı idi. O, şəhərin hər yerindən görünməli və Günəşin şüaları altında parlamalı idi. Lakin Bakı quberniyasının Dini İşlər İdarəsindən Zivər bəyə ciddi xəbərdarlıq edilir ki, Təzəpir məscidi yaxınlıqda yerləşən və xalq arasında "Qızıllı kilsə" adlanan Aleksandr Nevski pravoslav kilsəsindən hündür olmamalıdır. İdarə pravoslav ruhanilərinin fitvası ilə minarənin yalnız bir mərtəbəsinin tikilməsinə icazə verdiyi üçün Zivər bəy hazırladığı layihədə bəzi dəyişikliklər etmək məcburiyyətində qalır. Deyilənə görə, əgər məscidin minarəsi ikimərtəbəli olsaydı, öz hündürlüyü və yaraşığına görə kilsəni kölgədə qoyardı. Lakin qısa minarə ilə tikilməsinə baxmayaraq, Təzəpir məscidi Bakıda ən iri və möhtəşəm məscid olmaqla yanaşı, həm də şəhərə yaraşıq verən gözəl memarlıq abidəs oldu.

Məscidin özülünə birinci daşın qoyulması üçün Nabat xanım öz fəaliyyətinə adi bənna kimi başlayan məşhur xeyriyyəçi, milyonçu Hacı Zeynalabdin Tağıyevi dəvət etmişdi. 9 ildən sonra məscidin baş günbəzinə sonuncu daşı da elə Hacı qoyur. Lakin bunu görmək Nabat xanıma qismət olmur. Çünki o, tikinti başa çatmazdan iki il əvvəl, 1912-ci ildə - 117 yaşında ikən vəfat edir və elə məscidin həyətində dəfn olunur. Onun ölümündən 2 il sonra, 1914-cü ildə yarımçıq qalmış işini oğlu Hacı Abbasqulu Rzayev başa çatdırır. Nabat xanımın məzarı bu gün də Təzəpir məscidinin girişindədir. Onun qəbirdaşı üzərində təmir işi aparılıb və buradakı yazılar qızıl suyu ilə yazılıb.

## "Qızıla bürünmüş" Təzəpir

Ölkə prezidenti İlham Əliyevin sərəncamı ilə məsciddə aparılan əsaslı təmir-bərpa işlərindən sonra isə abidə daha da gözəlləşərək əsl memarlıq incisinə çevrilib. 2009-cu ildə istifadəyə verilən Təzəpir məscid kompleksinə mərasim zalı, Bakı İslam Universitetinin tədris korpusu, kitabxana, Qafqaz Müsəlmanları İdarəsinin inzibati binası daxildir.

Əsaslı təmirdən sonra məscidin ən cəlbedici yeniliyi onun interyeridir. Burada ümumi sahəsi 1400 kvadratmetr olan divarlarda və günbəz altında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq ornamentinin nadir nümunələrindən istifadə olunub. Mehrab kaşı və mərmərdən yığılıb, günbəzin pəncərə konstruksiyaları təzələnərək şəbəkəli taxta pəncərələrlə əvəzlənib. Günbəzə ağırlıq gətirən iki tonluq çilçıraq əvəzinə müasir texnologiyalı işıqlandırma sistemləri quraşdırılıb.

Məscidin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Günbəzin üstü isə Qızılqaya daşı ilə üzlənib, burada dekorativ elementlərlə bərabər, yuxarı hissədə "La İlahə İlləllah" kəlməsi 6 dəfə təkrar olunub. Dekorativ oyma detallarının və yazılı kəlmələrin üzəri yüksək əyarlı qızıl təbəqə ilə örtülüb. Günbəzin üstü isə hündürlüyü 1,6 metr olan daş sancaqla tamamlanıb.

Ən müasir avadanlıqla təchiz edilmiş məscidin müasir tələblərə cavab verən kitabxanasında qədim və qiymətli kitablardan ibarət bir xəzinə yerləşir. Kitabxana Qurani-Kərimin qədim əlyazmaları, elmi-dini, astronomiya, tarix, coğrafiya sahələrini əhatə edən kitablar ilə zəngindir. Burada əsasən XVII əsrin sonu-XVIII əsrin əvvəllərinə dair çox qiymətli əlyazmalar saxlanılır. Ən qədim kitabın 500 yaşı var və Şah İsmayıl Xətainin dövründə tərtib olunub. Üzlüyü dana dərisindən olan kitablar dövrünün xəttatları tərəfindən nəfis xətlə işlənib. Hər xəttatın kitaba vurduğu möhür sayəsində onun kim tərəfindən və nə vaxt yazıldığını müəyyən etmək mümkündür. Mərkəzdə dünyanın heç bir kitabxanasında mövcud olmayan və ya cəmi iki-üç nüsxəsindən biri olan kitablar da var.

Kitabxana fondunda daşbasma, qurğuşuntökmə üsulu ilə çap olunmuş və əlyazma şəklində olan 7300 qədim kitab mühafizə olunur. Daşbasma üsulu ilə çap olunan kitabların yaşı 150-200 ildir. Hazırda mərkəzdə Azərbaycan, türk, ərəb, fars, ingilis və başqa dillərdə çap olunmuş 10 min nüsxə kitab saxlanılır.

Bir sözlə, Təzəpir məscid kompleksi tək Azərbaycanın yox, bütün Şərqin əsrarəngiz memarlıq incisinə və Qafqazın dini mərkəzinə çevrilib.

*Xəyalə MURADLI, "Azərbaycan"*

## Bilirsinizmi...



- Hündürdaban ayaqqabıların ilk istifadəçiləri zabitlər olub. Belə ki, bu ayaqqabılar at üzərində hərəkət zamanı yəhərə daha yaxşı bərkiyir. Sonradan isə hündürdabanlar hərbi sahədən dəb dünyasına keçib.
- Zürafələr dəvədən daha çox susuz qala bilirlər.
- Orqanizmdə olan bütün əzələlər arasında ən işlək olanı göz əzələləridir.
- Dünyadakı heyvanların 80 faizi altı ayaqlıdır.
- Madaqasqarda 150 min endemik bitki və heyvan var.
- Moldoviyanın adı Rumıniyadakı Moldova çayından götürülüb.
- Haiti sözü yerli dildə "dağda yaşayanlar" mənasını verir.
- İnsanın həyatı boyu başında çıxan tükləri ölçsək, təxminən 725 km edəcək.
- İlk ulduz kataloqu e.ə. 150-ci ildə Gipparx tərəfindən tərtib edilib.

Xalq təbabəti

# Cəmi 17 faiz insanın düzgün cavabını tapdığı 3 sual

**Cəmi üç sualdan ibarət olan IQ-test Massaçusets Texnologiya İnstitutunun professoru Şeyn Frederik tərəfindən 2005-ci ildə tərtib edilsə də, yalnız son günlərdə populyarlıq qazanıb. İnsanın intellektual bacarıqlarının səviyyəsini müəyyən edən testə aşağıdakı suallar daxildir:**

*- Tennis raketkası ilə tennis topunun qiyməti cəmi 1,10 dollardır. Raketka topdan 1 dollar bahadır. Topun qiyməti nə qədərdi?*

*- Tekstil fabrikinin beş maşını beş geyimi beş dəqiqəyə istehsal edir. 100 maşın 100 geyimi neçə dəqiqəyə istehsal edər?*

*- Göldə suzanbağıları bitir. Hər gün onların sayı iki dəfə artır. Məlumdur ki, suzanbağıları bütün gölün üstünü 48 günə örtəcək. Gölün yarısını örtmək üçün suzanbağılarına neçə gün lazımdır?*

Professorun sözlərinə görə, respondentlər testə daha çox 10 sent, 100 dəqiqə və 24 gün cavabları verir. Sualların düzgün cavabı isə belədir: 5 sent, 5 dəqiqə və 47 gün.

Ş.Frederik bildirib ki, testi həll edən 3 min nəfərdən yalnız 17 %-i ona düzgün cavab verib.

Təbiətin dostları

# Qarğalar həqiqətənmi 300 il yaşayır?



**Qara rəngi və səsi ilə bəzi ölkələrdə uğursuz hesab edilən qarğalar sərçəkimilər fəsiləsindən və Corvus cinsindəndir. Bədəninin uzunluğu 22-23 sm, kütləsi 150-200 qramdır. Tükü yumşaqdır. Rəngi metal parıltılı qara, döşü bozumtul-qara, ağ və ya qara olur. Boynunda yarımhəlqəvi ağ zolaq var.**

Qarğaların bir-birinə yaxın iki növü var: adi dolaşa və dauriya dolaşası. Adi dolaşa Avropa, Asiya və Şimal-Qərbi Afrikada yaşayır. Azərbaycanda dolaşalar düzənliklərdə yayılmışdır.

Köçəri quşlardır. Koğuşlarda, evlərin damında koloniyalarla yaşayırlar. İldə 1 dəfə - aprel-may aylarında 3-6 yumurta qoyurlar. 16 gün kürt yatırlar. Bitki və cücülərlə qidalanırlar.

Qarğaların 150-300 il yaşadıqları deyilsə də, əslində, bu, doğru deyil. Bir neçə yüz il yaşaya bilən tək bir qarğa növü belə yoxdur. Qarğaların çoxu insan ömrünün yarısı qədər də yaşamır. Təbiətdə qarğaların ömrü 15-20 il arasıdır. Bəzilərində isə daha az, 4-8 ildir. Ancaq çox xüsusi baxım altında 30 ilə qədər yaşayanlar var. Qeydə alınan və bilinən ən uzun qarğa ömrü isə 40 ildir.

Bir neçə il öncə dünyanın məşhur elmi-kütləvi nəşrlərindən olan "Popular Science"da qarğalar haqqında yazılan faktlar isə çoxlarını heyrətləndirib. Orada qeyd olunan maraqlı faktlardan biri bir qarğa öldükdən sonra digərlərinin verdiyi reaksiyadır. Belə ki, "ala qarğa" adlı qarğa öz növündən olan başqa quşun ölüsünü gördükdə yemək axtarmağı dayandırır və həyəcan siqnalları verərək digərlərini səsləyir. Beləliklə, başqa qarğalar ölü qarğanın ətrafında toplaşırlar. Araşdırmada qarğaların bəzən ölmüş həmcinslərinin cəsədinin üstünü budaqlayıb, yarpaqlarla örtməyə çalışdıqları da göstərilir. Qarğalar bundan sonra susub, səssizcə ölü quşa yas tuturmuş kimi tamaşa edirlər.

Qarğalar, həmçinin ən böyük düşmənini, bayquşları görəndə digərlərini xəbərdar edirlər. Çağırışı eşidən digər qarğalar toplanıb düşmən üzərinə birgə yürüş edirlər.

O da qeyd olunur ki, qarğalar olduqca ağıllı heyvanlardır. Belə ki, 40-dan çox növü olan qarğaların beyni digər quşların beynindən fərqlənir. Qarğa beyni insan beyninə bənzədiyi üçün ağıllı hərəkətlər edir.

Oksford Universitetinin apardığı araşdırmalarda qarğaların ağıllı heyvan olduğu sübut edilib. Nazik, uzun bir borunun içinə qida, borunun yanına da uzun tel qoyulub. Qarğa teli alıb, ucunu çəngəl şəklinə gətirib, daha sonra onu borunun içinə daxil edərək qidanı asan şəkildə oradan çıxarıb. Daha öncə başqa heyvanlar üzərində tədbiq edilən bu təcrübə yalnız qarğalar üzərində uğurlu alınıb.



Sağlıq olsun

# Xəzanla sovrulan ruhumuz

Həkim məsləhəti



**Payız rəngarəngdir, yaşıldır, sarıdır, qızılıdır... Çox kövrəkdir, bəzən buluda çevrilib yağış səpələyir, küləyin ağacların saçını yolub xəzana çevirməsinə, quşların qatarlaşıb üfüqdə gözdən itməsinə üzülür.**

Payız romantiklərin fəslidir, şairlərin sözü, rəssamların fırçasının rəngidir...

Son bahar da deyirlər adına, təbiətin "ölməzdən" əvvəl son cəhd kimi işartısına, parlaqlığına görə...

Payızın bu cür dəyişkən olması təbiətin bir parçası olan insan duyğularına da birmənalı təsir etmir. Gah körpə uşaq kimi qayğısız, şən, gah da ömrümüzün qürub çağındakı kimi qüssəli görünürük, yox yerdən hər şeyə kədərlənirik, üzülürük, narahat oluruq...

Mütəxəssislər isə insanlarda müşahidə olunan bu əhvalı payız depressiyası adlandırırlar.

Bildirirlər ki, Günəşin daha az görünməsi ilə orqanizmdə melotonin hormonu artır, "xoşbəxtlik hormonu" sayılan serotonin isə azalır. Melotonin hormonu yalnız qaranlıqda ifraz olunur, işıqda isə azalır. Yayda gecələr qısa olduğu üçün melotonin ifrazı azaldığı halda, uzun payız və qış gecələrində daha çox artır.

Depressiyaya tez-tez düşən insanlar payız depressiyasına da asanlıqla yaxalanırlar. Qadınlar depressiyaya meyilli olduqlarından payız depressiyasına ən çox onlar düşür. Məlumatlara əsasən, dünyada hər beş nəfərdən biri bu depressiya növündən əziyyət çəkir.

Əlamətləri isə aşağıdakılardır:

səhər yuxudan oyanmaqda çətinlik çəkmə;
daha çox yatma istəyi;
ümumi yorğunluq;
iştahsızlıq;
hər şeyə marağın itməsi.

Psixologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Mehmanqızı payız depressiyası haqda deyir ki, orqanizmdə vitamin çatışmazlığı və az hərəkətli həyat tərzi bu psixoloji vəziyyəti yaradır. Depressiya insan psixikasını pozan çox ciddi xəstəlikdir. Hər şeydən əvvəl emosional vəziyyətin ağırlıq dərəcəsi qiymətləndirilməlidir. Depressiya vəziyyətində olan insanın bütün maraqları itir, öz həyat tərzindən, yaxud işindən zövq almır. Özünüqiymətləndirməsi aşağı olduğundan özünü günahkar və köməksiz hiss edir. "Mən heç nəyə qadir deyiləm" kimi inamsız fikirləri qərar qəbul etməkdə ona mane olur. Depressiya vəziyyətində insan ətraf aləmə və əhatəsində olan insanlara heç bir əhəmiyyət vermir, psixi və fiziki aktivlik zəifləyir. Bu zaman kövrəklik, dalğınlıq, əhvali-ruhiyyənin tez-tez dəyişməsi təzahür olunur. Güclü depressiya vəziyyətində insan səbəbsiz yorğunluq halında saatlarla bir yerdə otura bilər.

## Depressiyadan xilas mümkündür?

Psixoloq məsləhət görür ki, bütün gücünüzlə günəşin azlığını kompensasiya edin. Vaxtınızın çoxunu işıqlı məkanda keçirin. Axşamlar zamanınızı televiziya qarşısında keçirməyin, gəzməyə çıxın, hava alın. Yaxud 10 dəqiqəlik küçəyə çıxıb sadəcə səmaya baxın. Evdə, xüsusilə iş yerinizdə əhvali-ruhiyyəni qaldırmaq üçün mavi, çəhrayı rənglərdən müxtəlif fon yarada bilərsiniz, bu rənglərə baxmaq əhvala müsbət təsir edir.

Depressiyaya düşməməyin ən yaxşı yolu daim işlə məşğul olmaqdır. Deyl Kornegidən "nə vaxtsa depressiyadan əziyyət çəkmisinizmi" soruşduqda belə təmtərağa vaxtı olmadığını deyib. Deməli, boş vaxt keçirməmək, gün rejimini düzgün bölmək lazımdır. Hər gün eyni vaxtda yatıb, eyni vaxtda qalxmaq, ən əsası öz bioloji saatınızı dəyişməmək məsləhətdir: "Depressiyanın ilk əlamətlərini özünüzdə müşahidə etdikdə banan, pendir, şokolad yemək, çaxır içmək lazımdır. Əgər heç nə sizə kömək etmirsə və depressiya halının gündən-günə artdığını müşahidə edirsinizsə, onda psixoloqa, yaxud psixoterapevtə müraciət edin. Bütün bunlara baxmayaraq özünüzü inandırın ki, payız ilin gözəl fəsillərindən biridir. Çalışın ki, ətrafınıza pozitiv nəzərlərlə baxasınız. Belə olduqda nə payız, nə də qış depressiyası sizə qalib gələ bilməz".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Bilirik?

- Asqırmaq anadangəlmə refleks olduğuna görə, başladıqda onu dayandırmaq mümkün deyil. Proses qeyri-ixtiyari başlayıb heç bir kontrola tabe olmur.
- Asqırmanı saxlamaq ziyandır. Burunu sıxıb, ağzınızı bağlayaraq asqırmanı saxlasanız, siz qulaq pərdəsini zədələmə təhlükəsi yaradarsınız. Çünki təzyiq burun-udlaqla orta qulağı birləşdirən, Evstaxiev borusuna yönlənir. Bu prosesi saxladıqda qan damarlarının partlaması, burundan qan axma, başağrısı, bəzi hallarda görmə qabiliyyətini itirmə kimi hallar baş verə bilər. Bundan əlavə, asqırma zamanı orqanizm mikrob və allergenlərdən azad olur.
- Asqırma zamanı nə baş verir? İlk olaraq qıcıqlanma baş verir, dərin nəfəs alınır, ciyərlər hava ilə dolur, gözlər və səs bağları qapanır, qabırğaarası əzələlər, diafraqma, udlaq əzələləri və qarın əzələləri yığılır, döşdaxili təzyiq kəskin artır və nəhayət səs bağları açılaraq burun-udlağın açılması ilə kəskin nəfəsvermə baş verir.
- Asqırma zamanı havaya yüz min mikroorqanizm atılır. İnsan asqırdıqda 150 insana bakteriya ötürə bilər.
- Asqırmaq orqanizmi qoruyur və immun prosesinin əsasını təşkil edir. Asqırmaq yuxarı tənəffüs yollarından bakteriyalar və yad cisimlərin qovulmasını təmin edərək sağlamlığı qoruyur.

Türkəçarə



## Təbii şirin dərman

**Payız-qış aylarında immunitetin möhkəmləndirilməsi çox vacibdir. Bu insan orqanizminin infeksiya və viruslara qarşı davamlılığını artırır, daha az xəstələnir.**

Bəzi məhsullar var ki, onların daimi qəbulu immun sisteminə müsbət təsir edir. Bu məhsulların arasında ilk yerləri bal və limon tutur. Bal və limondan çox dadlı təbii immunopreparat hazırlamaq olar. Belə ki, 3 ədəd limon yaxşı yuyulur, qabıqlarla birlikdə blenderdə xırdalanır. Daha sonra eyni miqdarda balla yaxşı qarışdırılır və hər gün 1 xörək qaşığı olmaqla səhər və axşam qəbul edilir. Hazır qarışığı soyuducuda saxlamaq lazımdır.

Bu təbii dadlı dərmanı hər gün qəbul etmək olar.

Şəfalı bitkilər

# Dənəsi özündən də faydalı meyvə

**Zəngin kimyəvi tərkibə malik üzüm olduqca faydalı meyvədir. Onun tərkibində orqanik turşular, vitaminlər (A, C, B6), fol turşusu, antioksidantlar, minerallar (sink, dəmir, mis, kalium, maqnezium) və digər orqanizm üçün mühüm əhəmiyyətə malik maddələr var.**



Üzüm ürək-damar sistemi üçün ən faydalı meyvələrdən biri sayılır. Ürəyin fəaliyyətini yaxşılaşdırır, damarlarda trombların əmələ gəlmə riskini azaldır, damarları genişləndirir, qanda "pis" xolesterinin səviyyəsini aşağı salır, qanazlığı zamanı kömək edir. Ürək üçün qara üzüm daha faydalıdır. Ümumiyyətlə, üzümün tünd növləri insan sağlamlığı üçün ağ üzümlə müqayisədə daha faydalı sayılır.

Qaraciyəri təmizləyən, fəaliyyətini yaxşılaşdıran, möhkəmləndirən şəfalı meyvə falvonoid maddələrlə çox zəngindir. Bu maddələr güclü antiokidantlardır - orqanizmi cavanlaşdırır, xroniki xəstəliklərin inkişafının riskini azaldır. Sidikqovucu təsirə malik olan üzüm böyrəklərin sağlamlığını da qoruyur. Faydalı meyvə sinir sisteminə də çox müsbət təsir edir - gərginliyi və yorğunluğu azaldır, əhvali-ruhiyyəni yaxşılaşdırır. Üzüm ağciyərlərin və nəfəs yollarının vəziyyətini yaxşılaşdırır. Bu səbəbdən üzüm nəfəsalma sistemində problemləri olan və həmçinin siqaret çəkən insanlar üçün də çox faydalıdır. İmmun sistemini möhkəmləndirir, infeksiyalara qarşı davamlılığını artırır.

Üzüm yedikdə çəyirdəkləri atmayın, onları çeynəyib udun. Sübut olunub ki, üzüm çəyirdəklərinin tərkibində olan maddələr xərçəngəleyhinə təsirə malikdir.

Sağlam yaşam

# Piylənmədən əziyyət çəkənlər oxusun



**Hər pəhriz arıqlamağı vəd etsə də, çox vaxt sadəcə bədəndəki artıq sudan və şişkinlikdən azad ola bilirsiniz. Bel və qarın bölgəsindəki yağlar isə yığılıb qalır.**

Aparılan son araşdırmalar göstərib ki, bel ətrafındakı piylərin ən böyük düşməni kalsiumdur. Kalsium həm arıqlamağa, həm də daha incə və zərif bədən quruluşuna qovuşmağa kömək edir. Kalsium sümük və diş sağlamlığı üçün önəmli olduğu qədər mineral əzələlərin sıxlaşması, möhkəmlənməsi üçün də eyni dərəcədə əhəmiyyətlidir. Çünki bədəndəki yağları parçalayır.

Danimarkada 7569 nəfərin iştirak etdiyi araşdırmanın nəticələri göstərib ki, gündə 600 milliqramdan az kalsium qəbul edən insanlar daha kök olur, arıqlamaqda çətinlik çəkirlər. Başqa bir araşdırma zamanı isə bir il ərzində hər gün 1000 milliqram kalsium qəbul edənlərin bədənlərindəki yağ miqdarının 4.9 kiloqram azaldığı müşahidə edilib. Bu da onu göstərir ki, kalsium yağların bədəndə yığılmasının qarşısını alır. Üstəlik, toplanıb qalmış artıq yağları da parçalayır və bağırsaqlardan atılmasını təmin edir.

Kalsiumla zəngin qidalar insanı tox saxlayır. Bu da daha az kalori almağınıza səbəb olur.

Mütəxəssislər bildirirlər ki, yaşdan və bir sıra başqa faktorlardan asılı olaraq insanların qəbul etməli olduqları gündəlik kalsium dozası dəyişir. 19-50 yaş arasındakı şəxslər gündə 1000 milliqram kalsium qəbul etsələr, kifayət edər. 50 yaşdan sonra bu miqdarı 1200 milliqrama çıxarmaq lazımdır.

**Kalsium qaynaqları:**

Süd və süd məhsulları ən yaxşı kalsium mənbəyi hesab edilir. Həmçinin doşab, küncüd, fındıq, fıstıq, bütün göyərtilər müəyyən qədər kalsium ehtiva edir.

Gün ərzində süd, qatıq, ayran, pendir, kefir kimi süd məhsullarından heç olmasa, birini mütləq için və ya yeyin. Az yağlı süd və süd məhsullarını seçin.

Bol-bol ispanaq yeyin. Cəfəri, nanə də kalsiumla zəngin göyərtilərdəndir.

Həftədə 2-3 dəfə quru paxla, noxud, mərci xörəyi yeyin.

Tərkibində kalsium olan meyvələrə üstünlük verin. Həmçinin qaysı, quru əncir kimi çərəzlər yeyə bilərsiniz. Ancaq çox şəkərli olduqları üçün gündə 5 ədəddən artıq tövsiyə edilmir. Badam da güclü kalsium qaynağıdır. Həm də insanı tez doyuzdurur. Qəlyanaltılarda 3-4 ədəd badam yeyə bilərsiniz.

Xalq təbabəti

# Mədə ağrılarına son



**Kartof şirəsi:**

Çiy kartofun şirəsi mədə ağrılarına qarşı ən effektiv vasitələrdəndir. Bu şirə nəinki qıcqırma, hətta xroniki qastrit zamanı da xeyirlidir. Stəkanın dörddəbir hissəsi qədər yeməkdən əvvəl gündə 4-5 dəfə qəbul etmək lazımdır. Üç həftədən sonra ağrılar keçdikdə kartof şirəsinin qəbulunu gündə 2 dəfəyə qədər azaltmaq lazımdır.

**Bitki qarışığı:**

Müxtəlif bitki qarışıqları da mədə ağrılarını sakitləşdirə bilər. Problemi həll etmək üçün çobanyastığı, nanəcövhər, qatırquyruğu, şüyüd toxumu və cirə bitkisindən ibarət iki çay qaşığını qaynar su əlavə edib 20 dəqiqə dəm almağa qoyun. Dəmlənmiş çayı səhər və axşam ılıq halda içmək lazımdır. Bütün narahatlıqlar üç həftəyə yoxa çıxacaq.

**Qastritə qarşı sıyıq:**

İlk öncə çobanyastığından cövhər hazırlanmalıdır. Bir qaşıq çobanyastığı gülünü bir stəkan qaynar suda bir saat dəmləyin. Alınan cövhərin içinə 4 xörək qaşığı "Qerkules" əlavə edin və yulafın şişməsini gözləyin. Bu sıyığı ən azı iki ay səhər yeməyi zamanı yemək lazımdır. Ağrılar 3 gündən sonra keçəcək.

Mütəxəssis sözü

# Üzümçülük yenidən gəlir və şöhrət gətirir



Əvvəli 1-ci səh.

Qəbul edilən dövlət proqramlarına uyğun olaraq, müasir bazar tələbləri səviyyəsində üzümçülük və onun emal sənayesinin inkişafının təmin edilməsi üçün digər mühüm tədbirlərlə yanaşı, üzüm genofondunun tədqiqi və qorunub saxlanması məqsədilə müasir kolleksiya bağlarının yaradılması, yeni üzümlüklərin salınması, süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, istehsalının artırılması, şərabçılıq sənayesinin müasir texnologiya əsasında yenidən qurulması, tingçilik təsərrüfatlarının yaradılması və bu istiqamətdə elmi-tədqiqat işlərinin dəstəklənməsi kimi mühüm işlər həyata keçirilir.

Dövlət proqramlarında nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün daha çox üzüm becərilən coğrafi bölgələr üzrə üzümçülüyün elmi-praktiki zəmin üzərində inkişaf etdirilməsi məqsədilə fundamental elmi əsaslar yaradılır. Bu baxımdan rus və ingilis dillərində yazılan, həmçinin bütün dünya xalqlarının oxuyub başa düşməsi üçün ilk dəfə olaraq rəqəmsal qaydada Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatında qəbul edilmiş şifrə və kodlarla verilən "Azərbaycan ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası" adlı və digər fundamental kitablar nümunədir. Bu əsərlər müasir tipli üzüm plantasiyalarının salınması, istehsal müəssisələrinin yaradılması üçün mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Eyni zamanda respublikamızda kifayət qədər peşəkar üzümçü-aqronomlar, müasir texnologiyanı idarə edə bilən şərabçı-mühəndis kadrların olması sahənin inkişaf etdirilməsinə əlverişli şərait yaradır.

Azərbaycanda üzümçülük şərəfli inkişaf yolu keçmişdir. Keçən əsrin 70-80-ci illərində burada genişmiqyaslı üzüm plantasiyaları salınmış və 1984-cü ildə üzümlüklərin əkin sahəsi 284,1 min hektara çatdırılmış, hər hektardan məhsuldarlıq ən yüksək həddə - 99,2 sentnerə yüksəlmişdir.

Üzümçülük aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Üzümçülük yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə də yüksək göstəriciyə malik sahələrdəndir. Ona görə də üzüm istehsalı ildən-ilə artırılır. Bir hektar üzüm bağından əldə olunan maddi gəlir müvafiq olaraq pambıq sahəsindən 2,7, dənli-paxlalı bitkilərdən 3,9, tərəvəz bitkilərindən 1,5, bostan bitkilərindən 7,5, meyvə bağlarından isə 2,6 dəfə yüksəkdir. Üzümçülük kənd təsərrüfatı istehsalının çox xərc tələb edən sahəsi olmasına baxmayaraq, hər hektar sahədən əldə edilən məhsula görə ən yüksək göstəriciyə malikdir.

Müasir dövrdə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə xüsusi əhəmiyyət verilir. Bu istiqamətdə bölgələrdə üzümçülüyün genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ölkənin əlverişli torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, daxili bazarın süfrə üzümünə olan tələbatı, emal sənayesi müəssisələrinin yerli xammala ehtiyacı, regionda geniş ixrac bazarlarının mövcudluğu üzümçülüyün genişləndirilməsini zəruri etmişdir. Son dövrlər respublikamızda bu istiqamətdə dövlət proqramlarına uyğun mühüm tədbirlər həyata keçirilir. Gəncə-Qazax, Şamaxı, Cəlilabad, Naxçıvan, Abşeron və başqa bölgələrdə müasir tipli üzüm plantasiyaları salınır və şərab emalı müəssisələri yaradılır.

Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında əkinəyararsız ərazilərdə yeni üzümlüklərin salınması təqdirəlayiqdir. Məlum olduğu kimi, 30 ilə yaxındır muxtar respublika Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi səbəbindən blokada vəziyyətindədir. Dəmir yolunun işləməməsi muxtar respublikanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Buna baxmayaraq, əhalinin ərzaq məhsulları ilə normal təminatı üçün maksimum səylər göstərilir. Son dövrlər ərazidə üzümçülüyün də genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu baxımdan Nehrəm kənd inzibati ərazisinin şərq hissəsində indiyə qədər istifadəsiz qalan təpəliklərin şumlanaraq əkinəyararlı hala gətirilməsi nəticəsində 180 hektardan çox müasir tipli üzüm plantasiyalarının salınması dövlət proqramlarının icrasına ən layiqli töhfədir. Yeni salınan üzüm bağlarında əkilən "Red-Qlob", "Viktoriya", "Kardinal", "Sultaniyə" və başqa calaqüstü üzərindəki sortlar əsasən xaricdən gətirilmişdir. Üzümlükdə tənəklərin müasir tipli damcı üsulu ilə suvarılması şəbəkəsi yaradılmış və avtomatlaşdırılmışdır.

Üzüm sortlarının zəngin genofondu təbiətin xalqımıza bəxş etdiyi maddi sərvətlərdəndir. Tarixi inkişaf prosesində ölkəmizin ərazisində üzüm bitkisinin zəngin sort müxtəlifliyi formalaşmışdır. İqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi çərçivəsində qeyri neft-qaz sektorunun, o cümlədən aqrar sahənin dinamik inkişafının ölkənin əsas iqtisadi prioritetlərindən olduğu bir vaxtda bu, mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə də üzüm genofondunun öyrənilməsi, üzümçülüyün yenidən inkişaf etdirilməsi, sortların iqtisadi səmərəliliyinin yüksəldilməsi, əhalinin təzə üzüm və ondan hazırlanan müxtəlif ərzaqlarla etibarlı təminatı, bu sahədə sənaye istehsalının yüksəldilməsi, ixracyönümlü məhsulların artırılması işləri həyata keçirilir. Ölkəmizdə bölgələr üzrə üzümçülüyün genişləndirilməsi üçün kişmişi, süfrə, universal və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, regionların torpaq və iqlim şəraitinə uyğun yeni üzüm plantasiyalarının salınması, tingçilik təsərrüfatlarının yaradılması genişləndirilir. Fermerlər üçün bağsalma işlərində istifadə olunan əsas və köməkçi materialların istehsalının təminatı istiqamətində təşkilati işlər də vüsət alır. Üzümçülük və şərabçılığın infrastruktur təminatının yaxşılaşdırılması, elmi kadr potensialının gücləndirilməsi, üzüm istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqi, emal müəssisələrinin fəaliyyətinin bərpası və yeni müəssisələrin yaradılması sürətlə həyata keçirilməkdədir. Həmçinin üzüm məhsullarının satışının, eləcə də üzümün və şərabçılıq məhsullarının ixracının stimullaşdırılması, ayrı-ayrı mövsümlərdə əhalinin fasiləsiz olaraq süfrə üzümü ilə təmin edilməsi üçün soyuducu və anbar şəbəkələrinin yaradılması, daxili bazarın ədalətsiz rəqabətdən qorunması, dünya standartlarına uyğun spirtli içki məhsullarının istehsalının təşkili yüksəldilir. Eyni zamanda qurudulmuş mövüc, kişmiş, həmçinin sirkə, müxtəlif şirələrin, mürəbbələrin, spirtsiz içkilərin yüksək keyfiyyətlə sənaye miqyasında istehsalının təşkili istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir.



Müasir dövrdə üzümçülüyün yenidən genişləndirilməsində ayrı-ayrı sortlardan ibarət üzüm plantasiyalarının salınması yüksək keyfiyyətli məhsulun əldə olunmasına zəmin yaradır. Ölkədə üzüm istehsalı üçün əlverişli torpaq-iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli süfrə (o cümlədən kişmişi) və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin qonşu və digər ölkələrin bazarlarında yüksək keyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və digər üzüm emalı məhsullarına olan yüksək tələbat bu sahənin daha da inkişaf etdirilməsi zərurətini aktuallaşdırmışdır.

Azərbaycanda əhalinin kişmişi və süfrə üzümü məhsulları ilə təchizatında yerli sortlardan istifadə olunması daha məqsədəuyğundur. Çünki yerli əhalinin orqanizmi bu sortların biokimyəvi tərkibinə daha çox uyğunlaşmışdır və ona görə də torpağımızda yetişən üzüm sağlamlıq üçün daha faydalıdır. Təəssüf hissi ilə demək lazımdır ki, üzümçülüklə məşğul olan ayrı-ayrı şirkətlər yeni üzüm plantasiyalarının salınmasında xaricdən gətirilən sortlara üstünlük verirlər. Naxçıvanın üzüm genofondunda çox qiymətli süfrə, texniki sortlar mövcud olduğu halda Nehrəm kəndi ərazisində salınan yeni müasir tipli üzüm bağında xaricdən gətirilən, introduksiya sınağından keçməyən "Red-Qlob", "Viktoriya", "Kardinal", "Sultaniyə" və başqa calaqüstü üzərindəki sortlardan istifadə olunmuşdur. Şamaxıdakı "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin ərazisindəki üzüm plantasiyasında və digər şirkətlərdə də belə əkin qaydasına üstünlük verilir. Bilmək lazımdır ki, bu kimi sortlardan istehsal olunan spirtsiz və spirtli üzüm məhsulları ancaq malik olduqları ölkələrdəki torpaq-iqlim şəraitində yüksək kəmiyyət və keyfiyyət göstəriciləri ilə səciyyələnir. Azərbaycanın üzümçülük bölgələrində ekoloji şərait fərqli olduğundan əkilən belə sortlardan istehsal edilən məhsullar yerli sortlara nisbətən adətən aşağı keyfiyyət göstəricilərinə malik olacaq.

Yeni üzüm plantasiyalarının salınmasında Azərbaycanın üzüm genofondundan məqsədyönlü və səmərəli istifadə olunmalıdır. Ancaq bu yolla beynəlxalq üzüm və şərab məhsulları sərgilərində, festivallarda layiqli yer tuta bilərik. Genofondda cəlbedici əmtəə görünüşü, özünəməxsus keyfiyyəti, dadı və yüksək iqtisadi səmərəliliyi ilə dünyada məşhur olan 16-dan çox kişmişi, 70-dən çox süfrə üzümü sortları var. Üzüm genofondunda yüksək keyfiyyətli, dünya standartlarına tam cavab verən "Hənəqırna", "Ağ aldərə", "Mələyi", "Şamaxı mərəndisi", "Həməşərə", "Mədrəsə", "Bayanşirə", "Mərəndi", "Naxçıvan" qara üzümü və şərabçılıq sənayesi üçün çox perspektivli olan 100-dən çox başqa texniki sortlar mövcuddur. Belə üzüm sortları biokimyəvi tərkibinə görə də xaricdən gətirilən sortlardan çox keyfiyyətlidir. Yetişmə müddətlərinə görə yeddi qrupa bölünən və müxtəlif aqrobioloji xüsusiyyətləri ilə səciyyələnən belə kişmişi və süfrə sortlarından ibarət müasir tipli üzüm plantasiyalarının Naxçıvan, Qazax-Gəncə, Şamaxı, Lənkəran, Mil-Qarabağ, xüsusilə Abşeron bölgələrində salınması respublika əhalisinin ekoloji baxımdan təmiz, yüksək keyfiyyətli yerli üzüm məhsulları ilə təmin olunmasında çox mühüm əhəmiyyət kəsb edər. Həmçinin bu sortların sənaye miqyasında əkilməsi yüksək keyfiyyətli ixracyönümlü üzüm məhsullarının istehsalının artırılmasında mühüm rol oynayar. Azərbaycan ərazisi qurudulmuş kişmiş və müxtəlif çeşidli üzüm şirələrinin, doşab, abqora, mövüc, sirkə və başqa məhsulların istehsalı üçün olduqca əlverişli torpaq-iqlim şəraitinə malikdir. Ölkədə üzümdən spirtsiz və spirtli üzüm məhsullarının istehsalının təşkili, artırılması və müasir texnologiya əsasında genişləndirilməsi valyuta gəlirlərinin artırılması üçün çox perspektivlidir. Müasir dövrdə dünya miqyasında süfrə üzümünə, ondan hazırlanan müxtəlif çeşidli qurudulmuş məhsullara, şirələrə, ayrı-ayrı şərablara, xüsusilə qırmızı şərablara, ampeloterapiv müalicə vasitələrinə tələbat ildən-ilə artmaqdadır. İndiki dövrdə Azərbaycan dövlətinin özünün milli resurslarından istifadə etməklə ixracyönümlü üzüm məhsullarının istehsalının yüksəldilməsi hesabına ölkəyə xarici valyuta axınının artırılması imkanları çox genişdir.

Bir sözlə, üzümçülüyün inkişafı üzrə müvafiq dövlət proqramları əsasında görülən genişmiqyaslı işlər yüksək keyfiyyətli məhsulların istehsalının artırılmasına, onların satışından əldə olunan gəlirin dövlət büdcəsinə axınının sürətlənməsinə, kənd əhalisinin işlə təmin olunmasına, insanların maddi rifah halının daha da yaxşılaşmasına xidmət edir.

***Varis QULİYEV,***
***aqrar elmləri doktoru***

# Dövlət Sərhəd Xidmətinin "Tufan" tipli sərhəd gözətçi gəmisi Mahaçqalaya dostluq səfəri edib

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq qarşılıqlı faydalı əməkdaşlıq davam etdirilir.






DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, bu tədbirlər çərçivəsində sentyabrın 23-dən 26-dək Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisi Rusiya Federasiyasının Mahaçqala şəhərinə dostluq səfəri edib.

Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Sərhəd Xidmətinin rəsmiləri tərəfindən təntənəli mərasimlə qarşılanıb, tərəflərin sərhəd gözətçi gəmiləri qarşılıqlı ziyarət edilib.

Tərəflər arasında görüş keçirilib, ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, Xəzər dənizində sərhəd təhlükəsizliyinin təmin edilməsi, qanunsuz fəaliyyətlərə qarşı mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsi və təcrübə mübadiləsinin davam etdirilməsi məsələləri müzakirə olunub.

Səfər çərçivəsində tərəflərin qüvvə və vasitələrinin iştirakı ilə Xəzər dənizinin şimal hissəsində "Xəzər dənizi akvatoriyasının birgə mühafizəsi" mövzusunda sərhəd təlimi keçirilib. Təlimdə dənizdə qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə tərəflərin məlumatlandırılması, birgə sərhəd axtarışının keçirilməsi, tabe olmayan şərti sərhəd pozucusunun saxlanılması məqsədilə xəbərdarlıq atışının icra edilməsi, baxış qruplarının gəmiyə çıxarılması və baxışın keçirilməsi kimi epizodlar müvəffəqiyyətlə icra edilib.

Keçirilmiş təlimdə Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisinin heyəti tərəfindən qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, sərhədçilər tərəfindən yüksək döyüş hazırlığı və peşəkarlıq göstərilib, müxtəlif şəraitdə verilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmə bacarığı nümayiş etdirilib.

Təlimin nəticələri ekspertlər tərəfindən təhlil edilib və qarşıya qoyulmuş vəzifələrin tam həcmdə yerinə yetirilməsindən razılıq ifadə olunub.

Səfər müddətində Azərbaycan Respublikası və Rusiya Federasiyasının Sahil Mühafizəsi nümayəndələri arasında futbol üzrə yoldaşlıq oyunu keçirilib, Azərbaycan sərhədçiləri üçün Mahaçqala şəhərinin tarixi yerlərinə gəzinti təşkil olunub.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Respublikaçılar Trampa impiçment təhlükəsinin qarşısını ala bilmədilər

ABŞ Konqresinin aşağı palatasında Prezident Donald Trampa qarşı impiçment prosedurunun başlamaması barədə qətnamə üzrə səsvermə keçirilmişdir. Sənədi respublikaçılar hazırlamışdılar. Lakin Nümayəndələr Palatasında demokratlar çoxluq təşkil etdiyindən təşəbbüs alınmamışdır.

İclasda iştirak etmiş Respublikaçılar Partiyası fraksiyasının bütün üzvləri - 182 nəfər qətnamənin lehinə səs vermiş, Demokratlar Partiyasından olan 222 konqresmen isə sənədin əleyhinə çıxmışdır.

## İŞİD yenidən Misirdə terror aktı törətdi

İŞİD terrorçu təşkilatının silahlıları Misirin Bir-əl-Əbd yaşayış məntəqəsi yaxınlığında pusqu qurmuş, nəticədə Misir ordusunun yeddi əsgəri və bir dinc sakin həlak olmuşdur. Daha iki hərbi qulluqçu müxtəlif dərəcəli xəsarət almışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Öz növbəsində İŞİD silahlıları hücum zamanı 15-dək əsgəri öldürdüyünü iddia etmişlər.

## Əfqanıstanda prezident seçkiləri keçirildi



Dünən Əfqanıstanda növbəti prezident seçkiləri keçirilmişdir. Yerli vaxtla səhər saat 07:00-da bütün məntəqələr açılmışdır. Təxminən bir saat sonra Qəndəhar şəhərində seçki məntəqəsinin yaxınlığında partlayış baş vermiş, nəticədə 15 nəfər yaralanmışdır. Bu barədə "Sky News" telekanalı xəbər verir.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, seçkilərdə təhlükəsizliyin və asayişin təmin edilməsinə milli müdafiə və təhlükəsizlik qüvvələrinin 72 minədək əməkdaşı cəlb olunmuşdur. Səsvermə yerli vaxtla saat 15:00-da başa çatmışdır.

Xatırladaq ki, Əfqanıstan Prezidenti vəzifəsinə 18 nəfər, o cümlədən hazırkı dövlət başçısı Əşrəf Qani və Baş Nazir Abdulla Abdulla iddia edirlər. "ToloNews" agentliyinin xəbərinə görə, budəfəki seçkilərdə yalnız biometrik sistem vasitəsilə təsdiqlənmiş səslər nəzərə alınacaq.

## ABŞ Liviyanı bombaladı



Amerikalılar Liviyada İŞİD silahlılarının mövqelərinə havadan zərbə endirmişlər. Nəticədə xeyli terrorçu məhv edilmişdir. Bu barədə "The Hill" qəzeti xəbər verir.

İlk zərbə sentyabrın 19-da Mərzuq şəhərinin yaxınlığında endirilmişdir. Sentyabrın 24-də və 26-da isə ölkənin cənub-qərbi bombardmana məruz qalmışdır.

Amerikalı hərbçilərin dediyinə görə, hər əməliyyat zamanı 8 nəfərdən 17 nəfərədək silahlı öldürülmüşdür.

Bu, cari ildə ABŞ-ın Liviyada terrorçulara endirdiyi ilk zərbələrdir. Ötən il amerikalılar səkkiz əməliyyat keçirmişlər.

## Qərbi Nil qızdırması Almaniyaya çatdı



Almaniyada Qərbi Nil qızdırması xəstəliyinə ilk yoluxma halı qeydə alınmışdır. Virus Saksoniyanın 70 yaşlı sakinində aşkar edilmişdir. Onu adi ağcaqanad dişləmişdir. Məhz bu həşəratlar infeksiyanın əsas daşıyıcılarıdır. Bu barədə "Euronews" telekanalı xəbər verir.

İndiyədək Almaniyada təhlükəli virusa ancaq heyvan və quşlarda rast gəlinirdi. Adamların əksəriyyətində qızdırma praktiki olaraq simptomsuz keçir, amma bəzi hallarda ağır nevroloji pozuntular, hətta ölüm halları qeydə alınır.

Xəstəlik tropik və subtropiklərdə geniş yayılmışdır. Bu regionlar turistlər arasında populyarlaşdıqdan sonra Qərbi Nil qızdırması ara-sıra Avropa ölkələrində qeydə alınır.

Son məlumata görə, virusa yoluxmuş alman artıq Leypsiqdəki klinikaların birində müalicə almışdır.

«AZƏRBAYCAN»
qəzetinin
reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Sumqayıt Dövlət Universitetinin rektorluğu universitetin Folklorşünaslıq elmi-tədqiqat laboratoriyasının müdiri, professor Aslan Bayramova anası

**NƏNƏXANIM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9028
Sifariş 3167
Qiymәti 40 qəpik